T Ə R A N Ə  R Ə H İ M L İ

# *DƏRDİN PIÇILTISI*

**Bakı – 2007**

***Tərana Rəhimli***

Redaktoru və
«Ön söz»ün müəllifi: **Balaş AZƏROĞLU,**
*Xalq şairi*

**Təranə RƏHİMLİ. Dərdin pıçıltısı** (Şeirlər), Bakı, **2007,** 160 səh.

*Təranə Rəhimliyə görə şeir – dərdin pıçıltısıdır. «Bu dərdin pıçıltısı Dünya adlı böyük teatr salonunun arxa cərgələrində əyləşənlərin qulağına gedib çatırmı, yoxsa səriştəsiz aktyorların pıçıltısı kimi təkcə ön sıralarda əyləşənlərə yetir?» – bu şairin özünə sualıdır.*

*Əziz oxucu, bu sənət məsuliyyətli sual T.Rəhimlini Sənə gətirən yolun yeganə bələdçisidir desək, əsla inanma. Çünki, «Qorqud yaşayan sənələr»dən gələn bu uzaq yolda şairi narahat edən o qədər saysız suallar baş alıb gedir ki…*

*Gəlin, bu pıçıltıların sehrli dünyasına daxil olub şairin bütün suallarına cavab aradığı hisslər, düyğular aləmiylə baş-başa qalaq.*

$T\frac{1947006007}{1952(F)007}-2007$ **ADPU nəşriyyatı**

**© Təranə Rəhimli**

# ÖN SÖZ

*Poeziya – insan hisslərinin, duyğularının ən ali məqamlarını özündə ehtiva edən ecazkar bir aləmdir. Bizi əhatə edən mühit, gerçəklik qəlbimizin aynasında əks olunub mübhəm hissləri oyadır, duyduğumuz, hiss etdyimiz, xəya-lımızda canlanan görüntülər gözəl bir tabloya çevrilir. Söz sənətkarı bu tablonu fırça ilə deyil, söz ilə yaradır, yüksək bədiiliklə zinətləndirib ona yeni ömür verir, onu yaşadır. Sənətkar olmayanlar isə belə görüntüləri ancaq xatırlaya bilərlər.*

*Lakin şairi əhatə edən mühitdə baş verən hadisələrin, görüntülərin hamısı şeir üçün mövzu ola bilmir. Şair o hadisələri qələmə alır ki, onun qəlbini ehtizaza gətirir, onu narahat edir, nəhayət onu yazmağa məcbur edir. Əsil sənət əsəri də məhz bu zaman yaranır.*

*Masamın üstündəki şeir kitabından da əsil sənətin «qoxusu» gəlir. Təranə Rəhimlinin «Dərdin «pıçıltısı» adlı şeirlər kitabını oxuyuram. İnsanı düşünməyə vadar edən bu ad altında şair öz oxucularına «dərdlərini pıçıldayır», özü də nə az, nə çox, bir kitab həcmində. Ancaq kitabı oxuyan da görürsən ki, bu pıçıltılarda – yüksək sənətkarlıqla yazılmış şeirlərdə dərdin harayı var, qəzəbi var, etirazı var…*

*Şair bu harayı, qəzəbi, etirazı özünəməxsus həlimlik, incəlik və ustalıqla oxucusuna çatdırır. Onun təvazökarlıqla ədəbiyyatsevərlərə təqdim etdiyi şeirlərdə anlatmaq istədiyi mətləbləri hansı səviyyədə dərk etmək isə oxucunun ixtiyarına verilir.*

*Şair bal arısına bənzəyir, deyirlər. Arı müxtəlif gül-lərdən, çiçəklərdən şirə çəkdiyi kimi şair də onu əhatə edən mühitdən, hadisələrdən təsirlənir və bu təsirdən çox zaman şeir yaranır. Bu şeirlər vərəq-vərəq boy atıb kitaba çevrilir. Bir kitaba toplanan şeirlər isə bir bağçada əkilən güllərə bənzəyir. Güllərin hər birinin öz rəngi, öz rayihəsi olduğu kimi şeirlərin də hər biri oxucu qəlbində təkrarsız, özünəməxsus hisslər oyadır. Şair öz oxucusuna demək istədiyini misraların mənasına elə hopdurur ki, ancaq arif oxucu onu duyur, zövq alır və ruhən, qəlbən zənginləşir. Təranə Rəhimlinin «Gedək sənə Vətən olum» şeirindəki kimi:*

*Daha heç nə umma məndən,*
*Nəyim qalıb ki, tən bölüm.*
*Bu Vətən sənə yanmadı,*
*Gedək sənə Vətən olum.*

*Sevdiyi adam üçün Vətənə dönmək istəyi sevginin ən yüksək məqamıdır. Şair Nüsrət Kəsəmənli bu şeirdəki həmin ali məqamı, ali hissləri yüksək dəyərləndirərək yazırdı: «Budur türk qızının sədaqəti, budur türk qadınının ömür bağladığı can yoldaşına həmdəmlik etibarı...»*

*Təranə Rəhimlinin şeirlərində yaşadığımız dövrün ağrı-acıları dolğun şəkildə öz əksini tapıb. O, şeirlərindən birində «Nə var bu dünyada, gəl çıxaq gedək» deyir. Çünki, bu dünya şairin gördüyü və ya görmək istədiyi məkan deyil. Bu dünya tamam dəyişilib, burda «doğrular əl açır…», «ürəklər daş olub…», «minnət yaxşılıqdan qabaqda gəlir…» Odur ki, belə bir dünyada yaşamağa dəyməz:*

*Orda üzümüzə açıq qapılar,*
*Burdakı qayalar çətin çapılar.*
*Vallah yerimizə adam tapılar,*
*Nə var bu dünyada, gəl çıxaq gedək.*

*Təranə Rəhimlinin belə şeirlərini oxuyanda hiss edirsən ki, şairin dərdi sevincindən böyükdür. Bu dərdin isə dürlü-dürlü çalarları var: Torpaq dərdi, sevgi dərdi, dəlixana həyə-tindəki dəli qızın dərdi, hətta dərdin özünün «dərd»i... Bütün bu dərdlərə şairin özünəməxsus, bənzərsiz bir sənətkar münasibəti var. «Sınıq qəlbinə dəymə, Dərdi çoxdu dərdimin», «Məndə ürək nə gəzir, Sinəmdə dərd ağrıyır», «Dərdin külünü gözümə üfürdü ürək», «Dərdnən dolub sözə gəldim», «Üzürəm dərdin içində, Dərdim öz eybimi örtmür» deyən şair içində «dağa dönən» dərdin ağırlığından canı çöksə də DƏRDƏ bağlılığını ayrı-ayrı şeirlərdə belə etiraf edir: «Mən özüm dərdə gedirəm, Dərdin özü mənə gəlir», «Məni qoparmayın o köhnə dərddən, Bu təzə dərdimi ovudun bir az»,*

*«Dərdə açılan qucağam», «Mənə göz yaşı saxla, Başa çıxım dərdimi» və s.*

*Şair bəzən bu yaxın «həmdəm»dən – dərddən ayrılmaq istəyəndə, «Yetim qoyub gedəcəyəm bu dərdi yağı əlində» deyəndə də niyyəti baş tutmur.*

*Çünki:*

*Yenə tutub gətirirlər*
*Neçə dərdi böyütməyə.*
*Gözümün qalan yaşıyla*
*Təzə dərdi göyərtməyə.*

*Şairi narahat edən, təsirli şeirlər, misralar yazmağa sövq edən ümumi dərdlərimiz içində bir dərd də var: Onun qəlbində hələ uşaqlıqdan qövr edən, özünün heç vaxt görmədiyi, ancaq babasının söhbətlərindən eşitdiyi «Cənub» dərdi. Bu dərd çarların, şahların parçaladığı, Arazın dalğalarını sərhəd etdikləri torpağın, xalqın dərdidir. Ərdəbil, Həmədan, Təbriz həsrətilə göynəyən babasının heç zaman dilindən düşməyən bu dərdin ağırlığını o bir sənətkar fəhmiylə, həssaslığı ilə dərindən duyub. İncə ruhlu şairimizin babasına həsr etdiyi, oxucunun qəlbini həyəcanlandıran «Yadımda belə qalıb» adlı şeirini sadə dil ilə oxucuya çatdırmaq çətindir. Şeirdə verilən hissə, həyəcana, Vətən ağrılı misralara ayrılıqda toxunmaq günahdır. Mən şairin oxucularına həmin şeiri kitabdan bütövlükdə oxumağı məsləhət görərdim.*

*Təranə Rəhimlinin şeirlərindəki «Cənub» dərdi daha sonra Qarabağ: Xocalı, Şuşa… dərdləriylə birləşib böyük VƏTƏN DƏRDİni yaradır:*

*Fikirlər zəncirdə, talelər küskün,*
*İçimdə ümidlər əyri göyərdi.*
*Məni öldürmədi gördüyüm pis gün,*
*Məni öldürəcək bu Vətən dərdi.*

*Bu məqamda şairin bütün dərdləri Vətən dərdindən «utanır», o, nisgilini Vətənin «əsir gülü, əsir çiçəyi» Xarı bülbüllə bölüşür. Həmin misralarda Xarı bülbül Vətənin Şuşa qübarının rəmzi kimi mənalandırılır.*

*Təranə Rəhimlinin şeirlərini oxuduqca bir daha ina-nırsan ki, şairlik vergidir, xüsusi nemətdir. Daha dəqiq desək, Allahın verdiyi nemətlərdən ən başlıcasıdır, Yaradanın insan qəlbində yandırdığı işıqdır. O işıq bütün varlığın daxili aləmini işıqlandırır. Şairin də hünəri elə ondadır ki, adi adamların görə bilmədiyi o aləmi görür və onun poeziyasını yaradır.*

*Bəli, əsil şeir İlahi vergisidir, o gözlənilmədən gəlir, şairə isə ancaq onu vərəqə köçürmək qalır:*

*Yenə dəli könlüm şeir istəyir,*
*Xətai qılıncın oynadan şeir.*
*Bu ulu milləti kökə qaytaran,*
*Bu yatmış qaplanı oyadan şeir.*

*Millətə müraciətlə yazılan bu şeir əslində milləti azad-lığa, müstəqilliyə çağıran himndir. Mən Təranə Rəhimlinin «Dərdin pıçıltısı» kitabında oxucu qəlbini həyəcana gətirən, onu düşündürən belə misralara tez-tez rast gəldiyim üçün kitabı iki dəfə oxudum. Hər dəfə oxuyanda bu şeirlər haqqında məndə yeni-yeni fikirlər, qənaətlər yarandı. Zənnimcə, bu kitabdakı gözəl, bədii cəhətdən dolğun, sənətkarlıqla yazılmış şeirlər haqqında deyilən fikirlərin özü ayrıca bir kitab ola bilər. Odur ki, şairin bu bədii pıçıltılarına yığcam ön söz yazdım.*

*Kitabdakı şeirlərin mövzu rəngarəngliyi, fikir oricinal-lığı, dilin bədiiliyi, səlisliyi, ifadə və təsvirin yeniliyi və s. məziyyətlər haqqında söz deməyi isə diqqətli və tələbkar oxucuların ixtiyarına verirəm. İnanıram ki, bədii təfəkkürün dolğun inikası olan bu kitab öz oxucularında yeni-yeni təəssüratların yaranmasına səbəb olacaq. Tələbkar oxucular bu kitabı bir də ona görə sevəcəklər ki, burada Vətən, xalq, eşq, ana, ata, təbiət, ilin fəsilləri, həyat, ölüm… ümumiyyətlə, bizi əhatə edən bütün Aləmin fəlsəfi dərki üçün gözəl şeirlər vardır.*

*Türk təfəkküründən süzüdüb gələn, türk qeyrətiylə yazılan bu poetik incilər həm də milli yaddaşımızı təzələ-yir, bizi uzaq tarixi keçmişimizdən, əcdadlarımızdan miras qalan yüksək dəyərləri – uca mənəviyyatı, vüqarı, təmkini, sədaqət hissini… itirməməyə səsləyir. Şairin «Türkün nağılı», «Batı Trakya», «Bir türk qızı ağlayırdı yuxumda»,*

*«Mən bu ömrü yaşamışam» və s. bu qəbildən olan şeirlərindəki kimi.*

*Mən bu kiçik yazımda dediklərimi və ondan əlavə demədiklərimi də «Dərdin pıçıltısı» kitabında gördüm, oxu-dum, sevindim. Əmin oldum ki, 90-cı illərdə ədəbiyyatımıza gələn bu gənc şairin poeziya aləmində öz sözü, öz mövqeyi vardır. Buna görə də onun şeirləri ədəbiyyatımızın bir sıra görkəmli nümayəndələrinin diqqətini cəlb edib. Xalq şairimiz Hüseyn Arif, ədəbiyyatşünas alim, akademik Kamal Talıbzadə, Nüsrət Kəsəmənli, Oqtay Rza, Akif Səməd, Cavad Cavadlı və b. şairə sənət yolunda xeyir-dua veriblər, onun şeirlərini öz təqdimatlarıyla müxtəlif mətbuat orqanlarında dərc etdiriblər. Mənsə gələcəkdə bu əsrarəngiz «pıçıltıların» öz nüfuz dairəsini daha da ge-nişləndirəcəyinə inanıram. Kitabın müəllifi, gözəl şairimiz Təranə Rəhimlini təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.*

**Balaş AZƏROĞLU,**
*Xalq şairi.*

*iyul, 2006.*

***Poeziya işıqdır məncə – o işıqdan gördüm Tərananin şeirlərində.***

***Poeziya etirafdır məncə – səmimi, kövrək bir ürəyin etirafını gördüm Tərananin şeirlərində.***

***Poeziya insana, torpağa, yarpağa, daşa sevgidir məncə – o sevgidən gördüm Tərananin şeirlərində…***

***İşığı, sevgisi, etirafıyla uzaqlardan gələn, uzaqlara gedən təranələrdir – Tərananin şeirləri.***

***Akif SƏMƏD***

# *SEVGİMDƏN TANIYACAQLAR*



***Daha heç nə umma məndən,***
***Nəyim qalıb ki, tən bölüm.***
***Bu Vətən sənə yanmadı,***
***Gedək sənə Vətən olum.***

## RUHUM BƏDƏNİMDƏ QƏRİB KİMİDİ

Yerini tapmışam gəlib deyəm ki,
Bir də görüşünə gəlməyəcəyəm.
Ruhum bədənimdə qərib kimidi,
Daha bu bədəni geyməyəcəyəm.

Adımı qəlbindən silib gedirəm,
Şəklimi gözündə saxlasan bəsdi.
Sənin həsrətinlə tökdüyum yaşın
Bircə damlasını ağlasan bəsdi.

O qazılı qəbir mənim olacaq,
Yadına söz düşsə ünvanımı bil.
Mən hara getdimsə qərib olmadım,
Harda dayanmışam Vətənim deyil.

## GÖZÜMDƏN DÜŞDÜYÜN YOLA DÜŞÜRƏM

Məni tanımadın, körpə ağacdım,
Vaxtsız doğradılar, kölğəm olmadı.
Böyük ağacların kötüyü qalır,
Bir kötük boyunda izim qalmadı.

Sən hardan biləsən soyuqdu mənə,
Ruhumun paltarı çoxdan çürüyüb.
Elə dərd biçmisən boyuma gəlmir,
Məni sabahımın dərdi bürüyüb.

Nə deyib çıxasan haqqın üzünə,
Belə ayrılıqlar dərddi Allaha.
Gözümdən düşdüyün yola düşürəm,
Səni axtarmağa gedirəm daha.

## GEDƏK SƏNƏ VƏTƏN OLUM

Daha heç nə umma məndən,
Nəyim qalıb ki, tən bölüm.
Bu Vətən sənə yanmadı,
Gedək sənə Vətən olum.

Gedək bağlayım gözünü,
O həsrətə sarı baxma.
Gedək, qürbətin içindən
Yol tapıb o yana çıxma.

Özümə gün ağlamadım,
Barı sənə gərək olum.
İçində yer saxla mənə,
Öləndə Vətəndə ölüm.

## SƏNİ GÖZLƏRİMİN
## YAŞI TUTACAQ

Məni elə unut, mən də unudum,
Dönüb ürəyimi bir də sınama.
Rəngbərəng dərdlərim özümə qalsın,
Sevgini götür get, məni qınama.

Demə bu dünyanın üzü dönükdü,
Qınama taleyə belə əyildim.
Dağdan dözümlüydüm, daşdan səbrli,
Məni dəyişdilər, belə deyildim.

Daha bu sevginin ölmək vaxtıdı,
Köksümdə sən boyda məzar yatacaq.
Nə ah çəkəcəyəm, nə də adını,
Səni gözlərimin yaşı tutacaq.

## BU EŞQ DOĞULANDAN BAŞI AĞRIYIR

Sənin salamını basdırmaq üçün
Üstünə bir salam atıb gedirəm.
Bu eşq doğulandan başı ağrıyır,
Nə qədər ki, salamatıq gedirəm.

Yerbəyer et öz içində dərdini,
Sözlərini dilinə yığ qal indi.
Sənə dözən dözümümə qəbir yox,
O dözümlə yaşa indi, öl indi.

Qanı yerdə qaldı bu yazıq eşqin,
Barı ölüsünü yerdə qoymayaq.
Nə qədər söz verdik bir-birimizə,
Gəl qalan ömrü də sözlə oynayaq.

**BİR TÜRK QIZI AĞLAYIRDI YUXUMDA**

Ağ əlində yovşan qomu
ağ çadırın yanında
Bir türk qızı ağlayırdı yuxumda…
Ayılıb saata baxdım,
donmuşdu sarı əqrəblər.
Telefona əl uzatdım
köhnə nömrəni yığım,
Keyimişdi barmaqlarım.
Zəng vura bilmədim sənə.
İstədim geyinib evdən çıxım,
Gördüm getmir ayaqlarım.
Duydum ki, daha gecdi,
bildim daha yoxsan.
Gecə birtəhər keçdi…
İndi necə baxım səhərin üzünə?!
Yuxumda elə səni ağlayırdı türk qızı,
Ağ əlləri qoynunda,
ağ çadırın yanında.
Düşmək istədim səni
ağ çadırdan çıxarıb

məzara aparan məfənin izinə,

Gördüm   gecdi.
Bəxtinə gecikdiyim tək
dəfninə  də  gecikdim.
İndi fikrim yolda, baxışım donuq…
Yenə də harasa gecikirəm,
əlimdə şəklin vurulmuş nekroloq.

## SEVGİMDƏN TANIYACAQLAR

Kiminin izi qalacaq dünyada,
Kiminin gözü.
Birinin qəbri deyəcək
kim olduğunu,
Birinin sözü.
Hamı istəyəcək adı qalsın,
unutduracaq əsrlər.
Uçulacaq yalanlardan
ucalan saxta qəsrlər.
Hər şeyi biləcək adamlar,
Bildikcə qınayacaqlar.
Tonqallar çatılacaq
günahkar keçmişə.
Təkcə sözləri seçib saxlayacaqlar,
Bir də… məni
sevgimdən tanıyacaqlar.

## GÖZLƏRİN ELƏ BİL ÖZGƏSİNİNDİ

Əlimdə bir ovuc torpaq görürsən,
Baxıram ovcumda Vətən görünür.
Sənə elə gəlir yarpaq dərirsən,
Yaralı budaqlar qana bürünür.

Bilirsən ayağın altdakı yerdi,
Bilmirsən hər qarış neçə məzardı.
Bilirsən axırı ölüm, qəbirdi,
Bilmirsən ömür-gün qəbirdən dardı.

Üzümə baxırsan, baxışın donuq,
Gözlərin elə bil özgəsinindi.
Yaş tutub gözümə sən gələn yolu,
Azıb qalacaqsan yollarda indi.

## MƏNDƏ DAŞA DA SEVGİ VAR

Yenə gözlərim üşüdü,
Baxışların nə soyuqdu.
Odlu dilini don vurub,
Sözündə hərarət yoxdu.

Kirpiyindən buz asılıb,
Saçlarına qar səpilib.
Sanki sənin dodağınla
Qışın yanağı öpülüb.

Yaman üşütdün ruhumu,
Qəlbin buzdur, əllərin qar.
Qəm etmə belə soyuqsan,
Məndə daşa da sevgi var.

## BU EŞQİN ƏCƏLİ ÇATIB DEYƏSƏN

Bu eşqin  əcəli  çatıb deyəsən,
Sən get, əllərini qana batırma.
Daha təsəllidən, ümiddən keçib,
Nə özünü incit, nə məni yorma.

İndi hisslərimi  elə don vurub,
Günəşin içinə  qoysan  əriməz.
Qəlbimə o qədər dərd yeritmisən,
Daha ürəyimə sevgi yeriməz.

Gözünün içində məzar görmüşəm,
«Sevirəm» sözüylə  üzümə durma.
Bu  eşqin  əcəli  çatıb  deyəsən,
Sən get, əllərini qana batırma.

**ÜÇAYLIQ KÖRPƏDİ
HƏLƏ BU SEVGİ**

Üçaylıq körpədi hələ bu sevgi,
Südlü dodaqları acı dadmayıb.
Gözündə bu dünya mələk kimidi,
Hələ ki, yolunda iblis yatmayıb.

Tanımır qarşıda payızı, qışı,
Ürkək təbəssümü xəfifdi hələ.
Arzusu, diləyi dəyməyib daşa,
Qəlbi şüşədən də zərifdi hələ.

Hələ ümidləri boşa çıxmayıb,
Qızıl beşikdədi körpə arzular.
Hər gecə laylasın mələklər çalar,
Hər səhər yuxusu xeyrə yozular.

Üçaylıq körpədi hələ bu sevgi,
Yol alıb uzağa – həsrətə gedir.
Hələ ki, mənzilə gedib çatmayıb,
Əl uzat, Yaradan, özünü yetir.

## HƏR AXŞAM İÇİNDƏ BİR ÜMİD ÖLDÜ

***Özünü tənha hiss edən***
***ərli qadınlara***

Hər axşam içində bir ümid öldü,
Hər gecə bir təzə həsrət doğuldu.
Ağladın qəlbini boşaltmaq üçün,
Gözünün yaşında özün boğuldun.

Sən ər nəvazişi gördün yuxuda,
Xəyalda baş tutdu arzun, niyyətin.
Saxta səadətin dillərə düşdü,
Səni güldürmədi sevgi qismətin.

Pəncərə önündə heykələ döndün,
Ölmüş məhəbbətin başdaşı kimi.
Səni isitmədi nə bahar, nə yay,
Ömrün o payızı, o qışı kimi.

Qorudun ətirli xatirələri,
Bir dünya sevgidən sənə bu qaldı.
Qəribə taledi, nigahdan sonra
Adın ərli oldu, sən tənha qadın.

## DALĞALAR QABARIB ÇÖKÜR BU GECƏ

Dalğalar qabarıb çökür bu gecə,
Həsrətin bağrını sökür bu gecə.
Üstümə od-alov tökür bu gecə,
Bu sevgi mənimdi, mənimdi deyə.

Mənə bağışlayıb dağ vüqarını,
Saçlarıma səpir zirvə qarını,
Unudub ürəyim hər qübarını,
Bu sevgi mənimdi, mənimdi deyə.

Ömrün hər acısı  şəkərə dönüb,
Qəlbimdə kədərin ocağı sönüb.
Taleyim işığa, nura bürünüb,
Bu sevgi mənimdi, mənimdi deyə.

Bu ülfət yadıma nələri saldı…
O qayğılı günlər uzaqda qaldı.
Ölən ümidlərin ruhu şad oldu,
Bu sevgi mənimdi, mənimdi deyə.

## SƏNİ SEVMƏDİM

Mən səni sevmədim məni yandıra,
Sevgimlə açılan gözünü sevdim.
Dilindən çıxanlar dillərə düşdü,
Mənə demədiyin sözünü sevdim.

Qıymadım od olub bağrını sökəm,
Bəxtimi doğradım sənə bəxt tikəm.
Sevmədim vüsalın şirəsin çəkəm,
İçimdə həsrətin izini sevdim.

Mən səni sevmədim borclu qalasan,
İstədim qəlbimi borca salasan.
Mən sevən deyildim min sən olasan,
Sənin ürəyində özümü sevdim.

## SƏN DEYƏN OLSAM

Qəfil dönüb gəlsəm, sən deyən olsam,
Necə qarşılayar yolların məni?
Gözünü bağlasam, qəlbinə dolsam,
Qəlbinə çatarmı qolların sənin?

Sahibsiz könlünün yiyəsi olsam,
Darıxarmı ruhun bu yad şəhərdə?
Dilimdə bir söz var, deyəsi olsam,
Görən düşərsənmi mən düşən dərdə?

Ümidlə dünyanın sonuna getsəm,
Gözləsəm sonuncu ümid sönüncə…
Sənə gələn yolum hardasa bitsə,
Səni taparammı geri dönüncə?

Eh! Tanrı bir ömür versə yenidən,
Sən də o vaxtadək beləcə qalsan…
İnciyib özünü yenə Vətəndə
Qərib sanarsanmı sən deyən olsam?

## SƏSLƏNDİR AY ZAUR, DİNSİN VİVALDİ

Səsləndir ay Zaur, dinsin Vivaldi,
«İlin fəsilləri» ruhumu çalsın.
Yenə vəcdə gəlim. O sirli səslər
Yenə xəfif-xəfif könlümü alsın.

Yandırsın simləri skripkaçı qız,
Adamlar uyusun, daşlar oyansın.
Çalsın çılğın kimi uyğur gözəli,
Əslilər odlansın, Kərəmlər yansın.

Səsləndir, qayıtsın o günlər yenə,
O kafe, o sahil, çılpaq ağaclar…
Gəzişmək istəyək doğma şəhəri,
Yenə yolumuzu kəssin yağışlar.

Hər gün bayram edək görüşümüzü,
Bir gecəlik həsrət bizə dağ olsun.
Ötsə də ömürdən fəsillər, illər,
Bu sevgi bizimlə bir yaşa dolsun.

Səsləndir ay Zaur, dinsin Vivaldi,
Qoy yenə qayıtsın o isti fevral.
Mən də çıxıb gedim bu soyuq yazdan,
Sən də o fevralda elə isti qal.

## QARANLIĞA ÖPÜŞ GÖNDƏRƏN QIZIM

***Bu dünyanın ağacına, daşına, çiçəyinə,yarpağına, hətta qaranlıq gecəsinə körpəcə qəlbinin sevgisini öpüşüylə göndərən Şəfiqə qızıma***

Gecə qaranlığına öpüş göndərən qızım,
Qaranlıqdan başlanır hər aydınlığın yolu.
Tanıyıb görməyəsən bir özgə qaranlığı,
Sarsa da bu dünyanı qaranlıq zülmət dolu.

Qoy boy atsın qəlbində yerə-göyə məhəbbət,
Sev gecəni, gündüzü, işığı, qaranlığı.
Qaranlığı öpürsən, öp mənim mələk qızım,
Öpüşündən utansın hər qəlbin qaralığı.

Gecə qaranlığıdır hələ ki, tanıdığın,
Bəlkə bu qaranlıqda bir ulduzu öpürsən.
Nə yaxşı ki, sənin bu körpə məhəbbətin var,
Öpüşünlə ürəyə bir mərhəmət səpirsən.

Gör necə bəxtəvərdi gecənin qaranlığı,
Göydə ay gülümsəyir bəxtindən razı-razı.
Ulduzlar nur çiləyir, sanki gecə nazlanır,
Bu gecə qaranlığa öpüş göndərib qızım.

## MƏN BİR UNUDULMUŞ ADA

Mən bir unudulmuş ada,
Sən də yol azan gəmisən.
Bir az qəribəm dünyada,
Sən də yuxulu kimisən.

Qəlbim həsrətin vətəni,
Bu qürbət üzümə gülmür.
Yadımda bir nağıl qalıb,
Sənin heç yadına gəlmir.

Elə qürurla gəlmisən,
Qəlbimin sultanı kimi.
Bilmirsən ki, bu adadan
Baş açmaz yol azan gəmi.

## PETERBURQ GECƏLƏRİNDƏ

Gözlərim yol çəkə-çəkə
Nevaya çatıb yoruldu…
Gecə lampalarının
biri söndü.
Yıxıldım
Peterburq küçələrində.
Telefon dəstəyindən
səsim düşüb qırıldı
Peterburq gecələrində.
Və o gün…
Afişada isti söz:
«Məhəbbət əfsanəsi»…
Bir yol qanım duruldu
Peterburq küçələrində.
Sonra… düz kürəyindən
Son ümidim vuruldu
Peterburq gecələrində…
Peterburq küçələrində…

## BİR KÖRPƏCƏ ƏL UZANIB ÇARPAYI BARMAQLIĞINDAN

Bu eşq uzanılı qalıb
yerdə qurbanlıq quzu tək,
Qəssabın hünəri çatmır
bıçağın itiləməyə.
Ömür də yolda ilişib…
Qayıtmağa üzü gəlmir,
gücüm yox itələməyə.
Bir körpəcə əl uzanıb
çarpayı barmaqlığından,
Yenə məni bu otaqda
səninlə həbs eləməyə.

## BİR SEVGİ ÖLDÜ

Gözlərim önündə bir sevgi öldü,
Gözünü yummağa əlim gəlmədi.
Yollar haçalandı, ümid üzüldü,
«Əlvida» deməyə dilim gəlmədi.

Kədər karvan saldı ömür köçümdə,
Neçə arzularım söndü içimdə.
Məhəbbət məşələ döndü içimdə,
Əlimə bir ovuc külüm gəlmədi.

Böyük yox mənim tək nağıla uya,
Xəyalla yaşayıb, dərd ilə doya.
Belə günahları yağışlar yuyar,
Səslədim leysanı, seli, gəlmədi.

Fələk durdu bu sevdanın qəsdinə,
Yaman dəydi qüruruna, şəstinə.
Ürəyimdə o məzarın üstünə
Tikanım sarıldı, gülüm gəlmədi.

Sirrimizi bilən, bildirən bizik,
Aləmi özünə güldürən bizik.
Bu körpə sevgini öldürən bizik,
Vallah bizimiydi ölüm, gəlmədi.

## SƏNSİZ

Bir qərib həsrətim. Bir tənha gecə…
Taleyim iynənin gözündən keçər.
O istək, o ümid dönəndən heçə
Xəzan çiçəyi tək soluram sənsiz.

Kədərim damladan ümmana dönür,
İnamım şübhəyə, gümana dönür.
Bu titrək ilhamın ocağı sönür,
Sükutun qoynunda donuram sənsiz.

Yenə dəli payız. Sənsizlik qəmi…
Yenə fikirlərim yelkənsiz gəmi.
Dənizdə yem gəzən qağayı kimi
Dalğadan-dalğaya qonuram sənsiz.

## YALANIN GÜCÜ ÇATMIR
## BU EŞQİ YAŞATMAĞA

Yalanın gücü çatmır bu eşqi yaşatmağa,
Ya bitir bu nağılı, ya təzəsinə başla.
Ruhun kimi uzaq ol, ya cismin kimi yaxın,
Bu heykəl sükutunla sözümü daşa basma.

Qoy unudum bir anlıq çəkdirdiyin dərdləri,
Şəklin də qoy silinsin gözlərimin yadından.
Harasa çıxıb getsin şikəst xatirələr də,
Təzə bir eşq uydurum mənə sənin adından.

Nə düşünüm, nə deyim dönüb həmin olasan,
Bu eşqin nəfəsiylə yaşayasan, öləsən.
Bəlkə bir az ayrılaq, hələlik həsrət çəkək,
Bəlkə məndən uzaqda şirinləşib gələsən.

## SƏNDƏN ÜZÜLMƏYİN
## BİRCƏ YOLU VAR

Sənə xoş nə desəm dəyib qayıdır,
Üstümə dualar qayıdan kimi.
Hər isti söz səni bir az soyudur,
Vaxt ölüm-itimi soyudan kimi.

Qarışıb fikirlər biri-birinə,
Ha yozub-çözürəm sonu «Döz!» olur.
Nə etsəm verməyim sənə bəhanə,
O daş sükutum da dönüb söz olur.

Bağlıdır qəlbində bütün qapılar,
Qapıda durmağa hövsələm çatmır.
Səndən üzülməyin bircə yolu var,
İndi yola çıxmaq ağlıma batmır.

## YOLUMDA BİR GÜNLÜK PROMETEY OL

Mənə od ogurla Prometey tək,
Məni odla yandır, od ilə söndür.
Min ildi yanıram, odum tükənib,
Özünə od saxla, mənə od göndər.

Yanıram, oduma özgə qızınır,
Çölümün istisi içimə çatmır.
Alovum buludun əlini qarsır,
Qəlbimdə bir ovuc hərarət artmır.

Ağaclar od olub ucalmır göyə,
Bu torpaq sevgilər bitirmir daha.
Sözləri don vurub, dilimə yatmır,
Dualarım necə çatır Allaha?!

Mənə od oğurla, günah olsa da,
Odsuz yaşamağın özü günahdı.
Odlar məkanında soyuq nə desən
Kəlməsi günahdı, sözü günahdı.

Bir yol çəkir məni qürbətə sarı,
Həsrətin gözünə baxa bilmirəm.
Yolumda bir günlük Prometey ol,
Odsuz uzaq yola çıxa bilmirəm.

## HARDAN BİLƏSƏN?

Mənim gözlərimə göylər güzgüdü,
Sevdiyim bayatı, nağıl, düzgüdü,
Sənin yaşadığın dünya özgədi,
Sən mənim qədrimi hardan biləsən?

Hardan biləsən ki, zilim, bəmim var,
Yaşamağa eşqim, dərdim, qəmim var,
Mənim öz dünyam var, öz aləmim var,
Sən mənim qədrimi hardan biləsən?

Qar altında açan novruzgülüyəm,
Meşənin bulağı, dağın seliyəm.
Mücdə qaranquşu, eşq bülbülüyəm,
Sən mənim qədrimi hardan biləsən?

Parlayan günəşəm, yağan yağışam,
Çiçəkli baharam, boranlı qışam.
Taleyə yaraşıq, ömrə naxışam,
Sən mənim qədrimi hardan biləsən?

Gözlərində pərdə, qəlbində duman,
Pisi yaxşı gördün, yaxşını yaman.
Bu yaşda həyatı bilməyən oğlan,
Sən mənim qədrimi hardan biləsən?

## MƏNİ MƏNDƏN ALAN SEVGİ

Baharından ayrı düşüb
Qarlı qışa qalan sevgi.
Ürəyimi viran qoyub,
Ümidimi talan sevgi.

Min bir gümana çağırır,
Dinə, imana çağırır.
Əhdə, peymana çağırır,
Əhdi, andı yalan sevgi.

Ömrü çənə qaytaracaq,
Saçı dənə qaytaracaq.
Nə vaxt mənə qaytaracaq,
Məni məndən alan sevgi?!

**ÜMİD HƏSRƏTİ**

Mənə ümid verin ömrə başlayım,
Körpəcə bir ümid yetər sabaha.
İş-güc unudulub, bu həsrət məni
Özümdən, sözümdən ayırır daha.

Görünsün təptəzə bir ümid izi,
Həyatda son dəfə ürəkdən gülüm.
Elə ümid verin o ümidsizi
Öz ümid payımla doyura bilim.

Məni qoparmayın o köhnə dərddən,
Bu təzə dərdimi ovudun bir az.
Bircə qarış ümid göyərsin yerdən,
Bahara oxşasın bu dəli payız.

Telefon zəng çalsın, həyəcanlanım,
Bir ümid nəğməsi oxunsun yenə.
Ruhum təzələnsin, yenə canlanım,
Bir ümid – o səsi göndərin mənə.

## SEVƏNDƏN BƏRİ

Gəlişi özgədir yazın, qışın da,
Qoynunda gül açıb qara daşın da.
Qartal qıyya çəkir qaya başında,
Çiçəklər bəzəyir yenə çölləri.

Gümüldənir bulaq, axır şəlalə,
Qızarır dağların döşündə lalə,
Odlu baxışlarda bir özgə nalə,
Xəbərsiz ötüşür ömrün illəri.

Dünyanın günəşi, ayı yerində,
Meşəsi, cığırı, çayı yerində.
Axtarma uzaqda, sanma dərində,
Dəyişən özünsən sevəndən bəri.

## İNANMA

O vüsal yuxusundan,
Bənövşə qoxusundan,
Ayrılıq qorxusundan
Oyan – desəm, oyanma.

Qarşıda ömür gözlər,
Ötər cığırlar, izlər.
Yorulsa belə dizlər,
Dayan – desəm, dayanma.

Yolumuza yağsa qar,
Unudulsa düz ilqar,
«Səndən özgə həyat var»,
İnan – desəm, inanma.

## BU SEVGİDƏN XƏBƏRSİZSƏN

Əzabına dözəcəyəm birtəhər,
Bu sevdadan ötmək olmaz xətərsiz.
Səni tanıyandan qismətim kədər,
Bu sevgidən xəbərsizsən, xəbərsiz.

Səhərlər saçını darayan mehəm,
Kirpiyinə qonan bir damla şehəm.
Ömrünə, gününə mən cavabdehəm,
Bu sevgidən xəbərsizsən, xəbərsiz.

Pəncərəni döyəcləyən yağışam,
Baxışından oda düşən baxışam.
Taleyinə yaraşığam, naxışam,
Bu sevgidən xəbərsizsən, xəbərsiz.

Yollarında kövrək bir iz göynəyir,
Kül altında elə bil köz göynəyir.
Dodağımda təzə bir söz göynəyir,
Bu sevgidən xəbərsizsən, xəbərsiz.

Sultanam əlinə əsir keçmişəm,
Bu qərib taleyi özüm seçmişəm.
Səni görüb bildim sənsiz heçmişəm,
Bu sevgidən xəbərsizsən, xəbərsiz.

## ÜRƏYİM

Nə qədər ki, saçlara dən düşməyib,
Zirvəyə qar, dərəyə çən düşməyib,
Nə qədər ki, ömür-gün ötüşməyib,
Bu dünyanı yaxşıca süz, ürəyim.

Bənövşələr güllü yaza möhtacdı,
Dərdli könül telli saza möhtacdı,
Bu dünyanın özü naza möhtacdı,
Bu dünyaya eləmə naz, ürəyim.

Dözəcəyəm taleyimdən bezincə,
Qəmli gözlər yanağa yaş düzüncə.
O igiddən ümidini üzüncə
Bu dünyadan əlini üz, ürəyim.

## AYRILDIQ

Ayrıldıq. Dəyişdi gözümdə dünya,
Döndü bahar, payız, dəyişdi qış da.
Sirli dolayları dərdli dolaşıb
Məhəbbət aradım çiçəkdə, daşda.

Sındı arzuların qolu, qanadı,
Zaman ümid verdi, tale sınadı.
Yadlar tənə vurdu, dostlar qınadı,
Mənalar göründü üzdə, baxışda.

Meşələr büründü dumana, çənə,
Dolu döyəclədi sünbülə, dənə.
Təbiət vəfasız göründü mənə,
Düşdü nəzərimdən qar da, yağış da.

Oldu ümidləri talan sevginin,
Bu gerçək sevginin, yalan sevginin.
Bizi özümüzdən alan sevginin
Qədrini nə bilək hələ bu yaşda?!

Həsrəti ömrümə qənim bilirəm,
Yüz kərə dirilib, yüz yol ölürəm.
Ayrıldıq, hələ də elə bilirəm
Bir vüsal gözləyir bizi o başda.

Sənə yayda, payızda,
Qışda, qarda lazımam.
Həm sevgi bölüşməyə,
Həm də darda lazımam.

Hamıya bu dəyanət,
Bu ilqarda lazımam.
Bu boyda, bu görümdə,
Bu vüqarda lazımam.

Ömrü elə yaşadım,
Bildim harda lazımam.
Bir gün dünyadan köçsəm,
Bil ki, orda lazımam.

## AYRILIQ VAR

***Əlibala Hacızadənin məşhur trilogiyasını oxuduqdan sonra***

Ayrılıq var gizli gələr ömrünə,
Həsrət kələfində səni azdırar.
Ayrılıq var usanarsan yerinə,
Ayrılıq var sənə şeir yazdırar.

Ayrılıq var ümidləri talandı,
Uçurumlu yollar durur sonunda.
Ayrılıq var bu dünyada yalandı
Bütün ayrılıqlar onun yanında.

Ayrılıq var – dərddən hörülən qala,
Sevən ürəklərin qəm naxışıdır.
Ayrılıq var körpü salar vüsala,
Ayrılıq var ölüm ondan yaxşıdır.

## BİR GÜN GÖRƏCƏKSƏN...

Hər sözümü söz eləyib incimə,
Acı qatma, qəm bükmə sevincimə.
Ömür qısa, nə qalıb ki, köçümə,
Bir gün görəcəksən Təranəsizsən.

Çörəyinin dadı, duzu qaçacaq,
Xəyalların ötən günə uçacaq.
Bir gün mənsiz sabahını açacaq,
Bir gün görəcəksən Təranəsizsən.

Biləcəksən həsrət necə zülümmüş,
Ən böyük ayrılıq elə ölümmüş.
Qalacaqsan arzuları gömülmüş,
Bir gün görəcəksən Təranəsizsən.

Telefon dəstəyi asılmayacaq,
Arayıb-axtaran olsa da, ancaq
Səni mən tək sevən tapılmayacaq,
Bir gün görəcəksən Təranəsizsən.

Qərib olacaqsan Vətəndə mənsiz,
Sən də, qızlarım da yetimdi mənsiz.
Qədrimi bil, canım, çətindi mənsiz,
Bir gün görəcəksən Təranəsizsən.

## BU DÜNYANIN ÇİÇƏKLƏRİ KİM BİLİR NİYƏ ƏKİLİB

Bu dünyanın çiçəkləri
kim bilir niyə əkilib,
Çiçək yox, qəlbini gətir
məndən könül almağına.

Bu dünyanın dənizləri
kim bilir nəyin suyudu,
Düşən balıqdı, ya nədi
balıqçının qarmağına…

Bu dünyanın qızılları
kim bilir nədən ötrüdü,
Üzük məhəbbətini tax
sevgimizin barmağına.

## TƏNHA ADAM

Elə bilmə alûşmûsan,
Bu ömör-gön səni yorur.
Tavanûnda hörüm÷ək də
Fikirlərinə tor qurur
Tənha adam.

Səssiz, alaqaranlûq ev
Elə sanma dincliyindi.
Qazandûğûn lal divarlar,
Əldən gedən gəncliyindi
Tənha adam.

Boğulub ölör arzular,
ürəkdə duyğular əsir.
Yerə-göyə boylanûb bax,
Göldə sona da cöt gəzir
Tənha adam.

Qapûnû a÷, bu yazû gör,
÷i÷ək ÷i÷əklə yarûşûr…
Ətəyindən tök o daşû,
Təklik Allaha yaraşûr
Tənha adam.

## İTİRƏCƏYƏM SƏNİ BİR GÜN

İtirəcəyəm səni bir gün,
Ürəyimin yağı ilə yazdığım,
Sonra qalaq-qalaq itirdiyim
Şeirlər tək.

İtirəcəyəm səni bir gün,
Sonra verdiyin dərdləri
Səpəcəyəm yollarına
Çiçək-çiçək.

İtirəcəyəm səni bir gün,
Heyrəti ölmüş gözlərim
Daha nələri görəcək.
Qəlbimdəki məzarlıqda
Bir qəbir də göyərəcək.
İtirəcəyəm səni bir gün…



# MƏN BU ÖMRÜ YAŞAMIŞAM

***Ömür ovuc içi kimi,***
***Hər yerdən sonu görünür.***
***Ölüb gedən arzuların***
***Əlimdə qanı görünür.***

## DÜNYA YALANDAN

## DOĞULUB

Yalandan açılır səhər,
Yalandan düşür gecə də.
Dünya yalandan doğulub,
Yalan dolu bir gecədə.

Qoynumda yalan üşüyür,
Ocaqların odu yalan.
Bir yalan gəzir içimi
Başıaçıq, ayaqyalın.

Özümdən səsim ucadı,
Səsimdən asdırın məni.
Yalan yaşadım bu ömrü,
Yalandan basdırın məni.

## BİR QƏRİB MEŞƏDƏYƏM

Bir qərib meşədəyəm,
Baltalar dərd doğrayır.
Məndə ürək nə gəzir,
Sinəmdə dərd ağrıyır.

Özümdən usanıram,
Hər gün dərd qazanıram.
Yatmağa uzanıram,
Gözümü dərd bağlayır.

Qaldım çətində, darda,
Elə dərd gördüm yardan.
Məndə göz yaşı hardan,
İçimdə dərd ağlayır.

## BİR GÜNLÜK TANRI QOYNUNDA OLASAN ANA UŞAĞI

Arı olub bu dünyanın
Çiçəyindən qopmayasan.
Xoşbəxtlikdən dil-dodağın
Əsə, söz də tapmayasan.

Həyəcandan külə dönüb
İçində nəfəs quruya.
Yeri-göyü unudasan,
Səni göydəki qoruya.

Səpiləsən ulduz-ulduz,
Yığılıb günəş olasan.
Yadından silib dünyanı,
Təzədən tanış olasan.

Əlin Tanrı ətəyində,
Qəlbində Tanrı işığı,
Bir günlük Tanrı qoynunda
Olasan ana uşağı.

## GÜNLƏR ÖTÜR ÖMÜRDƏN

Günlər ötür ömürdən
saat əqrəbləri kimi ağır-ağır,
Bu günlərin hərəsindən
Bir cüt həsrət gözü baxır.
Arzular ötür
mənim qərib taleyimin
sağından, solundan,
Tutub saxlaya bilmirəm
ötüb gedən arzuların
birinin qolundan.
İllər balıq kimi
sürüşüb çıxır əlimdən.
Yenə həmin otaq,
yenə tənhalıq…
Yenə də gözləyirəm
dilimi yandıran söz
nə vaxt çıxacaq dilimdən.

## İTİRƏSƏN BU ÖMRÜ, TAPASAN YARISINDA

Kəfən olub bükəsən
Günlərin qarasını.
Öz qəbrinə tökəsən
Gözünün qorasını.

İtirəsən bu ömrü,
Tapasan yarısında.
Nəsə qala səninlə
İllərin arasında.

Gecəyə keşik çəkib
Yatmayasan yuxu da.
Yaşadığın həyatdı,
Biləsən lap axırda.

## MƏNİ OXUMA

Bir nağılam qış yuxulu,
Dəymə yuxuma, yuxuma.
Bənövşəyəm dərd qoxulu,
Azca qoxula, qoxula.

Bəxtim qayadan yıxılıb,
Qanı daşlara dağılıb.
Gözlərimə yaş yığılıb,
Mənə toxunma, toxunma.

Uçulub ömrün özülü,
O yanda qəbrim qazılı.
Bir kitabam qəm yazılı,
Məni oxuma, oxuma.

## DAHA YUXUM GƏLİR, ANA

İllər dərd yığıb gətirir,
Dərdlə bacara bilmirəm.
İzimə düşən kədərdən
Yaxa qopara bilmirəm.

Kölgələr gəzir içimi,
Həsrət, ölüm, qəm kölgəsi.
İşıq yox tutub gedəsən,
Aman, bura nə ölkəsi?

Nə zülümmüş oyaq qalmaq,
Dünya daraltdı səbrimi.
Daha yuxum gəlir, ana,
Yırğala beşik qəbrimi.

## EPİTAFİYA

Qaranlığa atılan daş kimi
Harasa gedib düşdü bəxtim.
Dalınca getmədi gözlərim.

Dönüb çiynimin üstündən
Gəldiyim yollara baxdım,
Dar ağacında yellənirdi sözlərim.

Qırxıncı qapıdan girib
Dünyanın sonundan çıxdım.
Bilmədim harda silindi,
harda qaldı izlərim.

## NƏ VAR BU DÜNYADA, GƏL ÇIXAQ GEDƏK

Bilinməyir cəhənnəmi, cənnəti,
Nə var bu dünyada, gəl çıxaq gedək.
Tükənmir kədəri, bitmir möhnəti,
Nə var bu dünyada, gəl çıxaq gedək.

Şeytan ələyindən şübhə ələnir,
Doğrular əl açıb düzlük dilənir.
Tutub qaldırdığın qol şübhələnir,
Nə var bu dünyada, gəl çıxaq gedək.

Ürəklər daş olub, daşlar gül açır,
Güllər həsrət qoxur, ayrılıq saçır.
Adamlar dəlidi, ölümdən qaçır,
Nə var bu dünyada, gəl çıxaq gedək.

Görüb-görmədiyim bağrımı dəlir,
Minnət yaxşılıqdan qabaqda gəlir,
Daha burda hamı hər şeyi bilir,
Nə var bu dünyada, gəl çıxaq gedək.

Orda üzümüzə açıq qapılar,
Burdakı qayalar çətin çapılar.
Vallah yerimizə adam tapılar,
Nə var bu dünyada, gəl çıxaq gedək.

## UDMAĞA TƏLƏSMƏ TORPAQ

Nə təndirdi yapılmışam,
Sıyrılıb küt düşməmişəm.
Udmağa tələsmə torpaq,
Hələ yaxşı bişməmişəm.

Qiyamət olacaq hələ,
Gördüyüm hələ qış deyil.
Əyildim qoynunda gülə,
Qoynun yazsız da boş deyil.

Gözlə hələ, səbrin olsun,
Geci-tezi öləcəyəm.
Bir az böyük qəbrin olsun,
Kalan dərdlə gələcəyəm.

## SƏN ELƏ BİLİRSƏN ÖLMƏK ASANDI?!

Bezib taleyindən ölüm istəyən,
Sən elə bilirsən ölmək asanqı?!
Ömürdən usanıb günü pisləyən,
Sən elə bilirsən ölmək asandı?!

Əbədi həsrətdi ölüm yuxusu,
Yoxdu vüsal dadı, sevgi qoxusu.
Dünyadan nigaran gedir çoxusu,
Sən elə bilirsən ölmək asandı?!

Dərdi çoxdu deyiləsi, deyəsi,
Dirilər az qala kəfən geyəsi.
Özünü ağlayır ölü yiyəsi,
Sən elə bilirsən ölmək asandı?!

Fikirlər dolaşır, gümanlar azır,
Torpağı kim verir, qəbri kim qazır,
Günahı, savabı orda kim  yazır,
Sən elə bilirsən ölmək asandı?!

Gəlişi qəfildi, vida vaxtı dar,
Mizan-tərəzisi, qıl körpüsü var.
İndi ərşə çıxıb orda haraylar:
«Sən elə bilirsən ölmək asandı?!»

## ÖZGƏLƏRDƏ ARA MƏNİ

Bu nə ölkə, nə şəhərdi,
Kim göndərdi bura məni?
Bir yol gördü div adamlar,
Yüz yol çəkdi dara məni.

Duyduqlarım duymadılar,
Dərd yedirib doymadılar.
İçimdə yer qoymadılar,
De, gizlədim hara məni?

Hər gün bir ümid yıxıram,
Qalaq-qalaq dərd yığıram.
Daha özümdən çıxıram,
Özgələrdə ara məni.

## İNDİ YARAŞIRIQ DAŞ MAĞARAYA

Bu daş adamların içində bezdik,
İndi yaraşırıq daş mağaraya.
Dolu mənzillərdə nələrə dözdük,
Qayıdaq o qədim, boş mağaraya.

Fələkdən təzə bir ömür qoparaq,
Ayları, illəri bölək təzədən.
Gedək, özümüzlə ürək aparaq,
Ürəklə yaşayaq, ölək təzədən.

Qaçaq qəbirlərin yad qılığından,
Qurtaraq bu canı ölü qalmaqdan.
Həbsdən çıxaraq tənhalığı da,
Dincəlsin mağara zindan olmaqdan.

Dünyada nə desən adamdan çoxdu,
Adam tək oxşayaq sirli daşları.
Özgə dəyişəcək libası yoxdu,
Astarıynan üzü birdi daşların.

Gözlərim yol çəkdi, məni yol yordu…
İçimizdən ayrı yola dönməyək.
Necə istəyirsən yaşayaq orda,
Öləndə burdakı kimi ölməyək.

## BİR DAMLA İLİŞİB KİRPİKLƏRİMƏ*

Bir damla ilişib kirpiklərimə,
İlişib içimdə çəkdiklərimə,
Üzülmək istəyir, üzülə bilmir.
Bircə ehtiyatsız sözdən yıxılıb,
Ürəkdən süzülüb gözə yığılıb,
Gözümdən aşağı süzülə bilmir.

Bu yola çıxmışam dərd yedəyində,
Qıyıb tökmədiyim dərd ətəyimdə,
İndi də yükünə dözülə bilmir.
İllər karvan kimi baş alıb gedir,
Yox olur uzaqda, əriyib itir,
Bu həsrət əriyib nazilə bilmir.

Bir şeir ağrısı çəkir bu gecə,
Ağlayır üz üstə çöküb bu gecə,
Sözlər ağ varağa düzülə bilmir.
Son duamı dildən yıxıb gedirəm,
Ruhumu götürüb çıxıb gedirəm,
Ömür burdan belə çözülə bilmir.

***Şeir qazax poeziyasının altıayaq şeir şəklində yazılıb.***

## MƏNİM ƏLİM SƏNƏ YETMİR

Yenə küləklə dolmuşam
Gəmidə yelkən sayağı.
Bir ümmana atılmışam,
Bilinmir başı, ayağı.

Üzürəm dərdin içində,
Dərdim öz eybimi örtmür.
Gedirəm həsrət yoluynan,
Ömür bitir, bu yol bitmir.

Burda günah burulğanı,
Sənə gələn yolum günah.
Uzadıram, əlim yetmir,
Sən əlini uzat, Allah.

### «REKVİYEM» ÇALINIRDI

Gecə səssizliyində
«Rekviyem» çalınırdı
son gecəyə layla tək.
Sirli səslər içində
döyünürdü o ürək…
Keçib zaman həddini,
Bütün yer kürəsinin
adlayıb sərhəddini
«Rekviyem» çalınırdı.

Səslər alovlanırdı,
Alışırdı Motsartın
piano dillərinə
o həsrət barmaqları.
Ölümün gizli öpüb
getdiyi dodaqları
Salyeriyə notları
pıçıldayırdı hələ,
«Rekviyem» çalınırdı.

Gecənin havasından
dərd qoxusu gəlirdi,

Səs quyuya enirdi,
zirvəyə yüksəlirdi.
Açılacaq sabahın
taleyi yazılırdı,
son dəfə üzülürdü
bəstəkarın ürəyi.
«Rekviyem» çalınırdı.

Səhərə az qalırdı,
Varlığını səslərə
köçürmüşdü o ürək.
Ağarmışdı bənizi,
Dodağında ölümün
buz kimi öpüş izi
Motsart gülümsəyirdi.
«Rekviyem» çalınırdı
son gecəyə layla tək.
…«Rekviyem» çalınırdı.

## DƏLİXANA HƏYƏTİNDƏ

Hasarın bu üzündə
Bütün aləm dəlidi.
O uşağın gözündə
O qüssə-qəm dəlidi.

Dəli qucduğu torpaq,
Torpağı öpən yarpaq,
Könlü ac, ruhu çılpaq
«İgid», «sənəm» dəlidi.

Bu yazın gəlişi də,
O qızın gülüşü də,
O ağlayan kişi də
Gözündə nəm dəlidi.

Gözətçinin baxışı,
Sanitarın qarğışı,
Dostun, yadın alqışı
Birəm-birəm dəlidi.

Bu qaragün binada
Dəli eyvan, dəli dam…
Bilmirsən dəli adam
Dünya bu dəm dəlidi.

## DƏLİ QIZA

Elə gülümsəyirsən
Ağlımdan utanıram.
Fələyin sinəmdəki
Dağından utanıram.

Taleyin gözündədir,
Gözünə baxmaq çətin.
Heyif, belə oxunur
Üzündən hər niyyətin.

Bu yazıq fərəhinlə
Gülürsən, gözüm dolur.
(Dəlilərin ürəyi
nə qədər təmiz olur)

Təbəssümdən biçilib
Dodaqların elə bil.
Gülüşündən bilinir
Bu həyat sənlik deyil.

Yığ qıvrım tellərini,
Açıq üzlə bax mənə.
Elə saf görünürsən,
Dünya yaraşmır sənə.

## AXIR MƏN DƏ ÖYRƏNDİM

Axır mən də öyrəndim
Bərkdən-boşdan çıxmağı.
Hər kədərin üstünə
Bir bəhanə yıxmağı.

Öyrəndim ayrılığın
İlk mənzilin, son yerin.
Bildim bu qısa ömrün
Hikməti necə dərin.

Gördüm hər parıltının
Dərd ilə söndüyünü,
Bu ömrün qocalıqda
Şəkərə döndüyünü.

Öyrəndim deyə-deyə
Sözü rəndələməyi.
Elə yıxılıb durdum,
Bir də səndələməyim.

Axır mən də öyrəndim
İsinib qaynamağı.
Bu qaranlıq dünyada
İşıqla oynamağı.

**OYNAYIR QARAÇI QIZI**

Oynayır qaraçı qızı,
Tonqalın titrək alovu
işıq salır çöhrəsinə.
Qollarını geniş açıb qucaqlayır
unutduğu bu dünyanı,
Baxmayır yan-yörəsinə.
Qarışıb qıvrım telinə
yaylığının naxışları,
Ətəyində hey yellədir
sevgi dolu baxışları…
Oynayır qaraçı qızı,
Xəyalında nəyi anır,
Alışır, yanır gözləri
tonqalın alovu kimi.
Bu günədək bəlkə azı
yüz kərə etdiyi rəqsi
elə ürəklə oynayır
damarında qan qaynayır
tamaşaya duranların.
Dincəlir qaraçı köçü…
Gitaranın səsi gedir uzaqlara.
Bu an kimsə
qaraçı olmaq istəyir
bir qaraçı gözəlinin
qəlbinə yol tapmaq üçün.

**ÖZÜMDƏ DARIXIRAM**

Gecə həsrət qoxulu,
Bu qoxunu sevirəm.
Gözlərim qəm yuxulu,
Öz yuxumu sevirəm.

Bu ömür yazıq oldu,
Təklənib düzdə qaldı.
Yolu nə uzaq oldu,
Mən yaxını sevirəm.

Özümdə darıxıram,
Özgə hara çıxıram?!
Allah, Səndən qorxuram,
Bu qorxunu sevirəm.

**YENƏ YUMULU GÖZLƏRİM**
**YUXU DALINCA SÜRÜNÜR**

Taleyimdə neçə düyün,
Gözdən düşüb bu ömür-gün.
Ruhum yorğun, canım üzgün,
Ölümün yeri görünür.

Sönüb gedir gündüzlərim,
Zülmətə düşür sözlərim.
Yenə yumulu gözlərim
Yuxu dalınca sürünür.

Dəyişib hər şey büsbütün,
Süsmaq zülüm, dinmək çətin.
Yenə yanır siqaretin,
Fikrim dumana bürünür.

## ŞEİR DAR AĞACI OLSAYDI

Şeir dar ağacı olsaydı,
Şair sözündən asılsaydı,
Deyərdim ölməyə nə var?!

Adamın abrı itməyə –
Dünyadan çıxıb getməyə,
Təzədən gəlməyə nə var?!

Sənə düşən günahındı,
Qalan nə var Allahındı.
…Eh! Bunu bilməyə nə var?!

## GÖYLƏR MƏNİ YAMAN ÇƏKİR

Yenə səssiz bir gecədi,
Göylər məni yaman çəkir.
Dağa dönüb dərd içimdə,
Ağırlıqdan canım çökür.

Bu mənzilin yolu zülüm,
Usandım ömrün yerinə.
Yanına nə üzlə gəlim?
Gör nə qədər borcum qalıb
SƏNƏ və bəndələrinə.

## ÖTƏN GÜNƏ QAYITMAQ İSTƏYİR HAMI

Ötən günə qayıtmaq istəyir hamı,
Bəlkə qəribə heç nə yoxdu bunda.
Amma ömrün axırı
lap çox çəkir adamı.
Həyat adlı ümmanda
birtəhər üzə-üzə,
əl-ətəyə ilişən
çör-çöpə dözə-dözə
gəlib çıxmışam dərdin ortasına.
Burdan eyni məsafədi
ömrün hər iki yarısına –
beş dalğa axırına,
beş dalğa əvvəlinə…
Geri dönmək istəmirəm
dərdin ilk sahilinə.
İnsan məna axtarır
hər şeyin sonunda.
Maraqsız görünür mənə
«əvvəl» «axır»ın yanında.
Daş səbri çoxdan ovulub
Dözümü daşlanan dünya.
Körpəcə uşaq kimidi

Qocalan, yaşlanan dünya.
Sevgisi ötüb yan keçir
Qəlbimə tuşlanan dünya.
Hələ özümə yol gəlir
Özümdən başlanan dünya.

## GÖZLƏRİM YOL ÇƏKİR

Gözlərim yol çəkir qəbrimə sarı,
Bu ömür səbrimi sınayır hələ.
Yorğun ayaqlarım yollara çöküb
Gözləyir məzarım qapıma gələ.

Tapmaq istəyirəm dünyanın çəmin,
Fikir qoşununu üstümə salır.
Gecə də xoşlamır ayıq adamı,
Yuxunun iynəsi gözümə dolur.

Dərdnən şəriklidir evim-eşiyim,
Açıqdı pəncərəm, qapım üzünə.
Ölüm də görünüb gizlənir yenə,
Düşüb gedəcəyəm bir gün izinə.

**HAMI ÖMRÜ ATIB GEDİR**

Yaman çoxdu ölüb-itən,
Dirilər sırasındayam.
Əcəlin yadından çıxıb,
Gözlə qaş arasındayam.

Bu nə sirdi batıb gedir,
Oyaq gələn yatıb gedir.
Hamı ömrü atıb gedir,
Mən hələ yarısındayam.

Daş atdı hər yoldan ötən,
Üz tutdu itiyi itən…
Günü xoş keçənə Vətən,
Dünyanın harasındayam?

## GÜNAH

Dünya günah dənizidir,
Hamı burdan «çimib» çıxır.
Hamı umur bağışlansın,
Bizi bağışlayan yıxır.

Tanrıdan əfv diləyirik,
Təzə günaha batırıq.
Gündüz günahlı gəzirik,
Gecə cünahla yatırıq.

Şübhə ilə yanaşırıq
Nə günahdı, nə savabdı.
Bilmirik ki, gələn qəza
Hansı günaha cavabdı.

Günahlar qəlbin əzabı,
Günahlar ömrə qənimdi.
O yığılır qalaq-qalaq,
Deyirik: «Allah Kərimdi.»

Yüz yol şeytanı daşladıq,
Etmədik günahı yasaq.
Hər gedən günah apardı,
Qaldıq yenə günah yazaq.

**BƏXTİM TANRI YAZANDI**

Bəxtim Tanrı yazandı,
Yuxum o sən yozandı.
Bu dünya bir qazandı,
Ha qaynayır bişmirəm.

Bərkdən-boşdan çıxmışam,
Neçə dərdi yıxmışam.
Öz əlimdən yığmışam,
Öz əlimə düşmürəm.

## DÜNYA, HƏLƏ SƏNƏ BƏLƏD DEYİLƏM

Sən köhnə mənzilsən, mən təzə sakin,
Dünya, hələ sənə bələd deyiləm.
Yaralı köksündə neçə qəzəb, kin,
Dünya, hələ sənə bələd deyiləm.

Mən bir ilk baharda açan çiçəyəm,
Kövrək bənövşə tək zərif ləçəyəm,
Soyuq, sərt  qışını gözləyəcəyəm,
Dünya, hələ sənə bələd deyiləm.

Əsrlərə sığmaz sirrin, sorağın,
Ötən qərinələr canlı yarağın.
Qoy yansın həqiqət  adlı çırağın,
Dünya, hələ sənə bələd deyiləm.

*1984*

## ÖTƏN GÜNLƏRİM

Müğənni bir haray salır ekranda:
«Ötən günlərimi qaytaraydılar.»
İlıq istək coşur damarda, qanda:
«Gələn günlərimə qıymayaydılar.»

Zülmət karvanıdır ötən günlərim,
Ömür gündüzündə əriyib itdi.
Taleyimə şərik qəm düyünləri
Xırmanda sərçəymiş, qovuldu, getdi.

Ötən günlərimin həsrət yükünün
Tərəzi gözündə çəkisi ağır.
Ovcumda xatirə yovşan bükümü
Uğursuz sevgi tək ovulub axır.

Həyat dənizində irəli gedən
Bir çılğın ləpəyəm, sahil pənahım.
Ötən günlərimə qayıtmaram mən,
Gələn günlərimdir ümid sabahım.

## DƏRDİ ÇOXDU DƏRDİMİN

Sınıq qəlbinə dəymə,
Dərdi çoxdu dərdimin.
Birdən düşdü gözümdən,
Qəfil yıxdım dərdimi.

Öz yolumla gedirdim,
Taxtımı kim devirdi?…
Astarına çevirdim,
Üzdən baxdım dərdimə.

Sənə nə deyim ağla?!
Ağla, fələyi yoxla.
Mənə göz yaşı saxla,
Başa çıxım dərdimi.

## ÖZÜMƏ OXŞAYAN QƏBİR GƏZİRƏM

Gedirəm, yoluma xeyir-dua ver,
Bu həsrət ömrümə yaraşan olsun.
Sənə deyiləsi sözü tapmadım,
Söz de, ikimizdən yadigar qalsın.

Daha tək deyiləm, dərd də yoldaşdı,
Yanında heç kimin olmayan yerdə.
Adama ölüm də təsəlli imiş,
Üz tutası ünvan qalmayan yerdə.

Qoymağa yer qəhət, daşımağa hal,
Bu canın əlində əsir-yesirəm.
Məni axtaranda tapasan deyə
Özümə oxşayan qəbir gəzirəm.

## ÖLÜ DƏNİZƏ

Dünya səni ölü doğdu,
Nə biləsən ölüm nədi,
Nə biləsən dirilərin
Diriliyi zülümlədi.

Çölümüzü kəfən örtmür,
İçimizi dərd doğrayır.
Yükümüzü daşımaqdan
Torpağın çiyni ağrıyır.

Ölüylə kimin nə işi,
Taleyin üzünə baxıb.
Eh! Bir də diri nə gəzir,
Sənin adın ölü çıxıb.

**ƏCƏLİM NECƏ OLACAQ ?**

Əcəlim necə olacaq,
Nə saxlayıb mənə Tanrı?
Sağlığımdan nə qalacaq,
Ağlayacaqlarmı barı?

Həsrət hopmuş xatirələr
Onda necə qoxuyacaq?
Boynubükük şeirləri
Hansı qərib oxuyacaq?

Hər fevralın 20-də
Kim doğulacaq dünyada?
Səndən, qızlarımdan başqa
Məni kim salacaq yada?

Kim görəcək yuxusunda,
Qəbrim üstə kim gələcək?
Haçansa Təranə vardı,
Kim deyəcək, kim biləcək?

Yaxşı-yaman ötdü illər,
Bu ömrün yolları yarı.
Əcəlim necə olacaq,
Nə saxlayıb mənə Tanrı?

## YUXU GÖZÜMƏ DAĞ OLDU

İsti yatağımdan edib
Yazdırdın məni ay şeir.
Sözün ulu məkanında
Azdırdın məni ay şeir.

Yuxu gözümə dağ oldu,
Əlində lap uşaq oldum.
Bu gecə nazın «ağ oldu»,
Dözdürdün məni ay şeir.

Gah ömrün şirin çağını,
Gah kədərin qucağını,
Keçmişin künc-bucağını
Gəzdirdin məni ay şeir.

Qayıt bu yolu kəsə gəl,
İşığa get, ya səsə gəl.
Gəlirsən birnəfəsə gəl,
Bezdirdin məni ay şeir.

## ÖMÜR OVUC İÇİ KİMİ…

Ömür ovuc içi kimi,
Baxıram hardan görünür.
Gizlicə tutub əlindən
Çıxıram burdan görünür.

Yenə tutub gətirirlər
Neçə dərdi böyütməyə.
Gözümün qalan yaşıyla
Təzə dərdi göyərtməyə.

Sallanıb enir quyuya
Son ümid kəndir ucunda.
Gizlənməyə bucaq gəzir
Adam dünyanın suçundan.

Ömür ovuc içi kimi,
Hər yerdən sonu görünür.
Ölüb gedən arzuların
Əlimdə qanı görünür.

**ADAM VAR Kİ…**

Adam var ağac kimidi,
Bir ağac ki,
barını, bəhrəsini
yığıb-yığışdırmaq olmur.

Adam var çiçək kimidi,
Elə çiçək ki,
ətrini, qoxusunu
bir ömrün baharına
sığışdırmaq olmur.

Adam var torpaq kimidi,
Sözünü sonda deyir.
Adam var daş kimidi,
Sevgin də, nifrətin də
elə bil daşa dəyir.

**BULUDLAR DAŞ YAĞDIRIR**

Buludlar üstümə daş yağdırır,
deyirlər doludu.
Ölən duaların qanı
tökülür göydən,
deyirlər «qırmızı yağış»dı.
Bu yazıq ömürdə
elə təklənib qaldım…
Sandım hər şeyin sonudu.
Beş-üç çiçəklə
yazı yola verdim,
soyuq ürəklə yayı.
Leysanlara qoşulub
ölən sevgilərə
ağladım payızda.
Ürəyimdə o yazda
gördüyün həmin daşdı,
Qıyıb ata bilmədim
bu qərib dərdin daşını…
İndi də deyirlər qışdı.

## ÖLÜMDƏN DOĞMA NƏ VAR Kİ?

Dünyada hər şey bahadı,
Ölümdən-itimdən başqa.
Nə dua var Allahadı,
Gözün duasıdı yaş da.

İllər töküldü ömürdən
Ağacdan yarpaq misalı.
Yaşadığım vaxta qaldı
Yer üzünün qeylü-qalı.

Gözümdən düşən yad oldu,
Seyrəldi dövrəm axır ki.
İndi mənəm, bir də ölüm,
Ölümdən doğma nə var ki?

**ÖMÜR İSTƏYİRƏM**

Sevgi istəyirəm,
Uşaqların çiçəklərə,
quşlara sevgisi kimi.

Xoş söz istəyirəm,
Gilavarın yarpaqlara,
ləçəklərə pıçıltısı kimi.

Ömür istəyirəm,
Yaxşı şeir ömrü kimi.
Ölüm istəyirəm,
Şair ölümü kimi.

Nə qədər şair var Allah,
Nə qədər şeir doğulur.
Boynunda sözün kəndiri,
Nə qədər şeir boğulur.

Hamı şahdı söz taxtında,
Bu sözün ucuz vaxtında.
Kimi yıxılır baxtından,
Kimi də sözdən yıxılır.

Qula döndük qul dünyada,
Çıxmağa yox yol dünyadan.
Bu şairdən bol dünyada
Allah, ürəyim sıxılır.

Ən yaxşı şeirimi yazıb
göndərmək istədim göyə,
Şeir həsrətiylə dolu
bir ağ vərəq göndərdim,
Oxumaq istədilər,
baş açmadılar mətnindən.
Utandım göydən-yerdən…
İndi qaranlıq tuneldən
çıxan metro qatarı tək
çıxmaq vaxtıdır
dünyanın bətnindən.

## SƏNƏ YAZMADIĞIM ŞEİR

***Anama***

Sənə yazmadığım şeir
Yıxacaq içimdə məni.
Öləndə ruhuma dolub
Çıxacaq içimdən mənim.

Boynumda haqq gedəcəyəm,
Bu torpaq, daş bilməyəcək.
Qoynunda sevgi tapdığım
O yaz, o qış dönməyəcək.

Yerə girəcək gözümdə
Dost-tanışın dönük üzü.
Axtaracaq məndən sonra
Ruhum sənə layiq sözü.

Sənə yazmadığım şeir
Gizlicə enəcək qəbrə.
Sən də ağlamayacaqsan
Doğulmayıb ölən şeirə.

Bir gözə kül üfürmədim,

Dərdin külünü gözümə
üfürdü ürək.

Bir ürəyi yıxmadım,
Ürəyim üstə yıxıldı
ölən arzu-dilək.

Bacardığım kimi sevdim,
Bu sevgiylə bacarmadım.
Yolunu öyrənib-bilib
Sonra sevəydim gərək.

**VAXTINDA GEDƏSƏN**

Ayrılasan qoynundan
bu qocaman divarların,
qocalığın səndən uzaq dövründə.

Gizlicə yola çıxasan
qaraçı köçündə,
Hər şeyin yaşına yasaq dövründə.

Çıxıb gedəsən
səni tanıyanların içindən,
Qadın gözəlliyinin Balzak dövründə.

**YENƏ TƏNHALIQ ƏL EDƏR…**

Yenə bir ümid can verir
həsrətin ayağı altda.
Kimdisə özündən gedib
özümdən içəri qatda.

Bir gün mən də gedəcəyəm
taleyin yığıb əlindən.
Yetim qoyub gedəcəyəm
bu dərdi yağı əlində.

Dönüb baxan da deyiləm
çağırsa ölən arzular.
Ürəyimin hər çatına
təzə bir ağrı yazılar.

Açar Tanrı qucağını
bükər öz çəkdiklərimə.
Qarışaram ətəyindən
Tanrının tökdüklərinə.

Düşərəm bu yer üzünə
yenə göyün sinəsindən.
Yenə tənhalıq əl edər
sükutun pəncərəsindən.

**YERİMİ HEÇ KƏSƏ DEMƏ**

Bəxtim yıxıldı daş üstə,
İllər töküldü yaş üstə.
Çıxıb gedirəm ahəstə,
Yerimi heç kəsə demə.

Suçumu yuyub gedirəm,
Ömürdən doyub gedirəm,
Hamını qoyub gedirəm,
Yerimi heç kəsə demə.

Odum tükənir, sönürəm,
Burda yazıq görünürəm.
Adəmə sarı gedirəm,
Yerimi heç kəsə demə.

## MƏN BU ÖMRÜ YAŞAMIŞAM

Payızı, qışı xoş gəlir,
Yolu eniş, yoxuş gəlir.
Ömür mənə tanış gəlir,
Mən bu ömrü yaşamışam.

Bu dünyanın saz vaxtıydı,
Türkün basılmaz vaxtıydı.
Vaxtıydı, ya bivaxtıydı,
Mən bu ömrü yaşamışam.

Yadıma düşür gör nələr,
Qan içində qərinələr.
Qorqud yaşayan sənələr
Mən bu ömrü yaşamışam.

Türkün təkiydi Tanrısı,
Vətən – dünyanın yarısı.
Yadımdan çıxıb sonrası,
Mən bu ömrü yaşamışam.

Qəfil bir gün gözə gəldim,
Dərdnən dolub sözə gəldim.
Ölüb bir də təzə gəldim,
Mən bu ömrü yaşamışam.

**DƏRDİN PIÇILTISI**

Zərli kəpənək qanadları kimi səssiz,
Yarımçıq ölən sevgilər kimi izsiz…
Bir gün dinmək istəyəndə
qalacaq sözsüz
dərdin pıçıltısı.

Kimin qılığına girib taledən azdıracaq?
Kimə öz içində qəbir qazdıracaq?
Kimə dərd qoxulu şeir yazdıracaq
dərdin pıçıltısı?

O ölü kəlməni necə yeyəcək?
Doğranmış ümidlərdən biçilmiş
həsrəti necə geyəcək?
Və sonda nə deyəcək
dərdin pıçıltısı?

# VƏTƏN DƏRDİ

***Fikirlər zəncirdə, talelər küskün,***
***İçimdə ümidlər əyri göyərdi.***
***Məni öldürmədi gördüyüm pis gün,***
***Məni öldürəcək bu Vətən dərdi.***

## VƏTƏN DƏRDİ

Bu ömür elə bil qurban payıdı,
Kəsildi həsrətin ayağı altda.
Məzar kölgələri gəldi üstümə,
Neçə nəğmə öldü dodağım altda.

Qanlı üfüqlərə baxmaq istədim,
Qaranlıq gecələr gözümə doldu.
Bir qərib bayrağı qucmaq istədim,
Qollarım havadan asılı qaldı.

Fikirlər zəncirdə, talelər küskün,
İçimdə ümidlər əyri göyərdi.
Məni öldürmədi gördüyüm pis gün,
Məni öldürəcək bu Vətən dərdi.

## VƏTƏN

Dərdi dərdimdən utanan,
Yolu qürbətə uzanan,
Yandırıb halıma yanan
Sən. Sən. Sən.

Vəfa, ilqar gördüyüm də,
Üz çevirib döndüyüm də,
Sevə-sevə öldüyüm də
Sən. Sən. Sən.

Varlığını kimdi danan?!
İçimdə yazılan ünvan,
Çölümdə ağlayan məkan –
Vətən. Vətən. Vətən.

## YENƏ DƏLİ KÖNLÜM ŞEİR İSTƏYİR

Yenə dəli könlüm şeir istəyir,
Bir isti kəlməyə, sözə möhtacam.
Özgə nə tamah var yaddı ruhuma,
Yaxşı şeir üçün nə vaxtdı acam.

Yenə dəli könlüm şeir istəyir,
Qərib məzar üstə cızılan şeir.
Füzuli eşqiylə, Babək qanıyla,
Durna lələyilə yazılan şeir.

Yenə dəli könlüm şeir istəyir,
Ərdəbil, Həmədan, Təbriz havalı.
Qəlbi param-parça bu Vətən kimi
Arazdan gileyli, torpaq davalı.

Yenə dəli könlüm şeir istəyir,
Xətai qılıncın oynadan şeir.
Bu ulu milləti kökə qaytaran,
Bu yatmış qaplanı oyadan şeir.

Yenə dəli könlüm şeir istəyir,
Bakıdan Bağdada salam yetirə.
Yarımçıq kəsilmiş dualar kimi
Qalan şeirləri yazıb bitirə.

## TÜRKÜN NAĞILI

Sənin yadına gəlməz,
Hələ yox idin onda.
Doğulmuşdum atamın
Qızılı çadır-evində.
soyların ən qüdrətlisi
Türk soyunda,
Oğuz elində…
Böyüdüm Qorqudu gördüm,
Türkün gücünü tanıdım.
Bir əlim qopuzda,
biri yaraqda,
böyüyürdü üstündə
böyüdüyüm torpaq da.
İri-xırda bütlərə
əyilirdi o zaman
bu dünyanın yarısı,
Təkiydi mənim Tanrım.
Ən böyük şöhrətim, varım
yenilməz türk adıydı.
Mən türkün hünəriydi,
ya elə inadıydı
Vətən böyüyə-böyüyə
gəlib çıxmışdı Bağdada.

Sonra nə oldu bilmirəm,
İnandıq yağıya, yada…
Türkü türkə saldırdılar.
Bir də gördüm
Çaldıran döyüşündəyəm,
O döyüşdə bizi bizə qırdırdılar…
Mən də o döyüşdə öldüm.
Sonrası yadıma gəlmir…
Sənin heç yadına gəlməz,
Onda sən hələ yox idin.

## DƏRDİMİ

***Torpağımın çoxu yada paylanıb,***
***Mən necə unudum belə dərdimi?***
***Həsən Mirzə***

Dərdimin közünü qopartdı dərdin,
Yenə yada saldın Vətən dərdimi.
Ərdəbil, Həmədan deyib ağlayan
Babamla məzara gedən dərdimi.

Qəmim köhnə qəmdi, yeni biçimdə,
İrəvandan gəlib Vətən köçündə.
Palıd tək qol-budaq atıb içimdə,
Qoparan yox dərin bitən dərdimi.

Ellərim didərgin, torpağım talan,
Yanan kənd-şəhərin külüdür qalan.
Tablamaz yükünə Murov, Savalan
Harayı dağlara yetən dərdimin.

Kim gəlib aradı, kim soraqladı,
Yoluxan doluxdu, bir də yoxladı.
İlan zəhərlədi,  qar ayaqladı
Çadırda illəri ötən dərdimi.

Səsim uzaqlara yetişşin, deyin,
Deyin Kremldə, Ağ evdə deyin.
Gizlədən bu xalqdan, millətdən deyil
Sinəmdə daş olub yatan dərdimi.

Oğullar canını verməyib hədər,
Qayıtsın Ağdərə, Şuşa, Kəlbəcər…
Düşmənin bağrına bağlasın ellər
Xosalıda qanı batan dərdimi.

## BAĞIŞLAMA AY VƏTƏN

Səni parça-parça bölüb itə, qurda atdılar,
Torpağını zaman-zaman namərd yada satdılar.
Naxələflər igidlərin kölgəsində yatdılar,
Biz də dinib-danışmadıq, bağışlama ay Vətən.

Başımıza od ələyən yağılarla barışdıq,
Dünəni tez yadırğadıq, bu günə tez alışdıq.
Ulu türkün o saf qanı haram qana qarışdı,
Ölüb yerə qarışmadıq, bağışlama ay Vətən.

Çaldı-çapdı səni gürcü, ərəb, rus dönə-dönə,
Qalib çıxdın hər sınaqdan, yıxılmadın sən yenə.
«Torpaqdan pay olmaz» deyib
biz də yağı düşmənə
Neçə yurdu bağışladıq, bağışlama ay Vətən.

Tikə-tikə paylaşdılar səni Azərbaycanım,
Paralanmış ürəyinə qurban yaralı canım.
O tayında qoy alışım, bu tayında qoy yanım,
Sən yananda alışmadıq, bağışlama ay Vətən.

**VƏTƏN SƏNƏ NEYLƏMİŞDİ?**

Qeyrəti, namusu yatan,
Torpağını yada satan,
Ey Vətəni oda atan,
Vətən sənə neyləmişdi?

Vurdun arzu-diləyindən,
Paralanmış ürəyindən.
Utanmadın çörəyindən,
Vətən sənə neyləmişdi?

Şuşa, Kəlbəcər, Xocalı,
Ağdam, Cəbrayıl yaralı.
Füzuli, Laçın, Qubadlı,
Zəngilan, Ağdərə adlı
Vətən sənə neyləmişdi?

Xocalıda qan dənizi,
Qar üstündə ölüm izi.
O körpə şəhid bənizi –
Vətən sənə neyləmişdi?

Güllələndi heykəl daşı,
Göynədi bağrımın başı.
Uçulan qəbir, başdaşı –
Vətən sənə neyləmişqdi?

Çölü,  düzü, biyabanı
Neçə  şəhid xiyabanı.
Məzardı, qandı dörd yanı,
Vətən sənə neyləmişdi?

Allah, gördük hər qəzanı,
Millətinə  gor  qazanı…
Verəcək  tarix  cəzanı,
Vətən sənə neyləmişdi?

## XARI BÜLBÜL

Əllərdə qalıbdı yesir çiçəyim,
Sevgidən bəxti kəm-kəsir çiçəyim.
Mənim əsir gülüm, əsir çiçəyim
Xarı bülbül, xarı bülbül.

Sərgərdan xəyalım sənin izində,
Yenə açırsanmı Cıdır düzündə?
İsa bulağında, şair sözündə
Xarı bülbül, xarı bülbül.

Yurdum param-parça, torpağım viran,
Üzeyirin, Xanın ruhu nigaran.
Nə vaxt sağalacaq bu dərin yaran?
Xarı bülbül, xarı bülbül.

Şuşanın əhdinə vəfalı qızı,
Sənsiz qarşıladım gör neçə yazı.
Qorxuram yetişə ömrün payızı,
Xarı bülbül, xarı bülbül.

## MÜHARİBƏ LÖVHƏSİ

Uşaqları dəmir borulara yığıb
ağzını tıxacladılar,
Qadınları soyundurub
qar üstündə qova-qova
ölüncə qırmancladılar.
Kişilərin diri-diri əzalarını kəsdilər,
Səsi çıxanın dilini
daş üstə qoyub əzdilər.
Qocaların qarnı üstdə
ocaq çatıb
samovar qaynatdılar,
Qarıları bir-birinə bağlayıb
yanar tonqala atdılar.
Tüfənglərin qundağı
südəmər körpələrin
səsini biryolluq kəsdi,
Xəlvət meşədə gizlənən
məsumları öldürməyə
neçə xain əl tələsdi.
Şəhərlər ev-ev, küçə-küçə alışdı,
Torpağa nə qədər
nahaq qan qarışdı.
Alovlar, ahlar, nalələr buluda yetdi,
İnsan gözünün dəhşət,
vəhşət adlı heyrəti bitdi.
On il sərasər içimizdə
hər gün qiyamət qopdu,
Müharibə beynimizə, ruhumuza
«erməni» sözüylə hopdu.

## BATI TRAKYA*

Dolanır əsrlər, bilinmir yaşı,
Hünər salnaməsi torpağı, daşı.
Türkün ulu yurdu, ulu yaddaşı
Batı Trakya.

Gördes qalasının məğrur inadı,
Yağı qılıncını burda sınadı.
Sultan Bəyazidin qolu, qanadı
Batı Trakya.

O yovşan ətirli qıpçaq düzündə
Fateh Sultan Mehmet zəfər izində…
Hər daş kitabənin axır sözündə:
«Batı Trakya».

Məriç, Gümülçinə, İskəçə adı
Sanki ürəyimin Araz fəryadı.
Səni həsrətindən görüb tanıdım
Batı Trakya.

İtirdin qeyrətli Sadıq Əhmədi,
Ötdü vaxt, bu qovğa hələ ötmədi.
Sən barış istədin, savaş bitmədi,
Batı Trakya.

Başın üstü yenə dumandı, çəndi,
Azadlıq həmişə ölümlə təndi.
Türkün qanı düşən hər yer Vətəndi
Batı Trakya.

**** Yunan - Türk müharibəsi nəticəsində bağlanmış sülh müqaviləsinə görə Yunanıstan ərazisinə qatılan tarixi osmanlı torpaqları.***



# BU PAYIZIN TƏK DURNASI

***Günəşin  çöhrəsi tutqun,***
***Torpağın çiyinləri yorğun.***
***Həyat lal lövhələriylə***
***əbədiyyət sükutunda,***
***Dünya nə qərib görünür***
***öz şüşə tabutunda.***

## SÜKUT TABLOSU

Quşlar havada asılı qalıb,
balıqlar suda,
Üfüq qızara-qızara
ölüb bu səhər burda.
Küləyin qovduğu yerdə
başını köksünə əyib
quruyub qalıb ağaclar,
Bir xəzan çiçəyi açıb,
doluxsunub yamaclar.
Buludlar ağır-ağır
yerə doğru sallanıb,
Dənizdə susqun suların
rəngi bulanıb.
Günəşin çöhrəsi tutqun,
Torpağın çiyinləri yorğun.
Həyat lal lövhələriylə
əbədiyyət sükutunda,
Dünya nə qərib görünür
öz şüşə tabutunda.

**ŞEİR YAZMALI HAVADI**

Uğuldayır pəncərəmdə
Küləyin, çovğunun səsi.
Özünü yaza göstərir
Yenə qışın son nəfəsi.

Səmada var-gəl eləyir
Buludun üzüqarası.
Ulduzlar sürgün olunub,
Tutulub ayın yarısı.

Puçurlanıb tumurcuqlar,
Titrəşir körpə budaqlar.
Göyə nəsə pıçıldayır
Yenə dualı dodaqlar.

Dilə gəlib lal duyğular,
Bu da qışın son savabı.
Pəncərəmdə bir aləm var…
Şeir yazmalı havadı.

**QAR YAĞIR**

Qar yağır…
Dünən küləyin, çovğunun
dəlisovluq etdiyi çöllər
bu gün necə fağır.
Qar yağır…
Hər tərəfi
ağ pərdəylə örtdukcə
adam qar altında qalan
bir ovuc torpaq üçün darıxır.
Qar yağır…
Bəlkə hardasa
qarın ağırlığından
bir dam yıxılır.
Qar yağır…
Bu isti evdə
çadırda qalan Vətənçün
yaman ürəyim sıxılır.

## MEŞƏNİN BƏYİ VAR…

***«Ağaclar qorxudan əyri göyərir» şeirinin müəllifi Ağamalı Sadiq Əfəndinin xatirəsinə böyük ehtiramla***

Səni eşitmədik Sadiq Əfəndi,
Öldü meşələrin ağacı, kolu.
Ağaclar qorxudan əyri göyərdi,
Ot basıb düz gedən cığırı, yolu.

Əyilən budaqlar düzü gizlədir,
Əyrini düz bilib düz tək öyürlər.
Pöhrələr başını qaldıra bilmir,
(Düz böyümək istəyəni döyürlər.)

Adamın ürəyi, gözü götürmür
Baltalı əllərin gördüklərini.
Meşəyə başdaşı qoyublar sanki
Kəsilən düz ağac kötüklərini.

Düz ağac işığa yolları bağlı,
Boy atıb göylərə yüksələ bilmir.
Dərdinə qısılıb qalıb bu orman,
Əyrilər artdıqca düz ələ gəlmir.

Təbiət məzar tək sükuta dalıb,
Allahın yanında üzüqarayıq.
«Böyük-kiçik bilən» həmin millətik,
Meşənin bəyi var, biz nəkarayıq?!

## NECƏ GÖZƏLDİ TƏBİƏT

Necə gözəldi  təbiət,
Necə bəxtəvərdi dünya.
Bəxtəvərlik belə yazda
Belə dünyaya gəlməkdi.

Gəlib dənizə söz demək,
Dağnan dərdləşməkdi ömür.
Bu dənizdən, bu dağdan
Ayrı düşmək ölməkdi.

## BU PAYIZIN TƏK DURNASI

Bu payızın tək durnası,
Köç edəndə haray saldın,
Göy üzünə kədər çökdü
harayından.
Bu payızın tək durnası,
Bu payızda tənha qaldın,
Özün hürkdün harayından.
Tale sənə necə qıydı,
Qərib oldun öz səfində?!
Bu payızın tək durnası,
Harayın özgə haraydı,
Bu qərib fikrim dolaşdı
harayının kələfində.
Bəxtin sənə dönük çıxdı,
Əlləri batdı günaha.
Sən görə bilməyəcəksən,
Payız dönəcək bir daha.
Bu payızın tək durnası,
Payız həsrətinlə yanıb
Yollarına boylanacaq,
izlərinə səpiləcək.
Bu payızın tək durnası,
Köç edəndə haray saldın,
Son payızım gələnədək
qulağımda səslənəcək.

## BU YAĞIŞ

Titrədi göylərin şimşək düvağı,
Sellər yudu qəm yuxulu qovağı.
Çözələndi xatirələr yumağı,
Bu yağış yağışa bənzəmir daha.

Nə torpağa horub əriyə bilmir,
Nə daşın qəlbinə yeriyə bilmir.
Yetim həsrət kimi kiriyə bilmir,
Bu yağış yağışa bənzəmir daha.

Donuq duyğuların üzü bahara,
Nisgilli nərgizlər qəlbimdə yara,
Bilinmir səfəri, mənzili hara,
Bu yağış yağışa bənzəmir daha.

Yenə xatırlatdı olub-ötəni,
Yenə çəkdiklərim göynətdi məni.
Bir çaylaq daşında göyərtdi məni,
Bu yağış yağışa bənzəmir daha.

**PAYIZ MƏNİM ƏLİMDƏDİR**

Ümidlərim güman olub,
Şübhələrin felindədir.
Yenə sənin gözün dolub,
Payız mənim əlimdədir.

Xəzəl örtüb izlərimi,
Yollar yorub gözlərimi.
Söz eləmə sözlərimi,
Acılığı dilimdədir.

Yenə taledən qaçağam,
Dərdə açılan qucağam,
Odu sönmüş bir ocağam,
Nəyim qalıb külümdədir.

Dəyişdi o dövran, gərdiş,
Kəsildi o gəliş-ğediş,
Karvan ötdü, qərib dərviş,
Qalan canım zülümdədir.

## DƏNİZ KƏNARINDA

Dəniz kənarında
bir inadcıl balıqçının
qarmağından
körpəcə balığı aldım,
Suların qucağında
evinə yola saldım.
Dünya boyda fərəhim
sığmır indi yerə-göyə,
Bir balanı anasına
qaytarmışam  deyə.

# YADIMDA BELƏ QALIB



***Gözləyib güman itirdik,***
***Diləyib aman itirdik.***
***Allah nə yaman itirdik,***
***Səni də itirdik daha.***

## YADIMDA BELƏ QALIB

*Ərdəbil, Həmədan, Təbriz həsrətini*
*qəlbində məzara aparan İsrafil babama*

Axşam başlayardı «Günün ekranı»,
Əyləşərdi televizor önündə,
Gözləyərdi vətənindən bircə kəlmə
söz eşitmək həsrətilə,
İzləyərdi hər xəbərdə İranı.
Doğulduğu Ərdəbil,
böyüdüyü Həmədan nədi,
sevinərdi hətta adını
eşitsəydi Tehranın.
Dinlədiyi bircə müğənni vardı,
Rübabə oxuyanda
qəlbində tüğyan qopardı.
Anardı Arazın o tayındakı
qardaşını, bacısını,
Göynəyə-göynəyə çəkərdi
taleyin həsrət  adlı acısını.
Uşaq ikən anlayırdıq,
babam üçün bu dünyada
sevgi qucağıdı İran.
O qədər əlçatmazdı ki,
sanardıq lap bu dünyanın
qurtaracağıdı İran.

O yaşda hardan biləydik
yaxınkən uzaq olmağın
ağrısı necə böyükdü,
Nə biləydik Vətən dərdi
ürəyə ən ağır yükdü.
Bu yükün ağırlığını çəkə-çəkə,
Gah «həmşəri», gah «demokrat»…
neçə qərib damğasının
əzabından çökə-çökə
qəm oduna düşdü babam.
Gözündə Təbriz həsrəti
dünyasın dəyişdi babam.
İllər ötdü, həsrətin
yabanı otlar kimi
biçildiyi gün gəldi.
Tikanlı məftillərin
keçildiyi gün gəldi.
O acılar sovuşdu,
Məzarına bir ovuc
torpaq tökəndə atam
hamı düşündü babam
vətəninə qovuşdu.
Zaman keçib o vaxtdan,
Yadımda belə qalıb:
Axşam… «Günün ekranı»…
vətən həsrətli babam
televizor önündə izləyir İranı.

## NƏNƏMƏ

***85 yaşlı nənəm Tavat xanım atamın erkən vəfatıyla barışa bilmirdi.***

Dırnaqların cığır açdı üzündə,
Taleyini döyəclədin dizində.
Daşa döndü yaş, asıldı gözündən,
Sənin balan, mənim atam dönmədi.

Dönük bəxtin nə məzlumdu, fağırdı,
Bala dərdi hər ağrıdan ağırdı.
«Bala» deyib yana-yana çağırdın,
Sənin balan, mənim atam dönmədi.

Əsilzadə nəslin itdi Sibirdə,
İz qalmadı soyundan bir qəbir də.
Ötdü karvan, geri səslədin bir də..,
Sənin balan, mənim atam dönmədi.

Gözlərində o məzarın həsrəti,
Ürəyində ayrılığın möhnəti.
Bitdi Yaradanın ömür möhləti,
Sənin balan, mənim atam dönmədi.

## ATAMA AĞI

Gözləyib güman itirdik,
Diləyib aman itirdik.
Allah nə yaman itirdik,
Səni də itirdik daha.

Yıxılıb yolda qalmadıq,
Ağlayıb gözdən olmadıq.
Ha çatladıq, qırılmadıq,
Səni də itirdik daha.

Ömürlə ölüm tən qaldı,
O dərd, kədər yetim qaldı.
Qürbət olub Vətən qaldı,
Səni də itirdik daha.

## BAŞDAŞINIZLA GÖZ-GÖZƏ

***Atamın və nənəmin***
***qoşa məzarları önündə***

Siz yerdə uzanılı,
Mən qarşınızda ayaq üstdə.
Baxa bilmirəm qəbrinizə
Yuxarıdan aşağı.
Başdaşınızla göz-gözə
Nələri anıram…
İçin-için yanıram,
Ovundura bilmirsiz
Əlinizdə böyüyən uşağı.

## ATAM ÖLƏN GÜNÜ ÖLMÜŞDÜ NƏNƏM

Gəzib dolanırdı qərib ruh kimi,
Dərddən yanıb-yanıb sönmüşdü nənəm.
Xəbəri yox idi qohumun, yadın,
Atam ölən günü ölmüşdü nənəm.

Gözündə yaş donub, yuxu ölmüşdü,
Dilində sonuncu «ah»ı ölmüşdü,
Son ümidi, son pənahı ölmüşdü,
Atam ölən günü ölmüşdü nənəm.

Sinəsində kül olmuşdu sözləri,
Döyəclənib yorulmuşdu dizləri.
Məzarına yol çəkirdi gözləri,
Atam ölən günü ölmüşdü nənəm.

Dərd yağırdı duruşundan, tövründən,
Utanırdı bu fələyin səbrindən.
Özünü basdırıb oğul qəbrində,
Atam ölən günü ölmüşdü nənəm.

Sevgisi, nifrəti ölüb-itmişdi,
Qəm içində tükənmişdi, bitmişdi.
Ruhunu götürüb çıxıb getmişdi,
Atam ölən günü ölmüşdü nənəm.

## YUXUDA BİR EV GÖRÜRƏM

Hər gecə yuxuda bir ev görürəm,
Rəngi solmuş aynabəndi,
qaralmış pilləkənləri,
çürümüş sürahiləri
dil açıb məni səsləyən
çiy kərpicdən sadə bir ev.
Ən əlçatmaz duyğuları,
ən kövrək xatirələri
qoynunda bəsləyən bir ev.
Hər gecə yuxuda bir ev görürəm,
Əyilmiş damı da mamır bağlayıb,
Uçuq eyvanından tək sütun qalıb.
Bəlkə yoldan ötən qərib yolçu da
dayanıb bu qərib evçün ağlayıb.
Hər gecə yuxuda bir ev görürəm,
Artır ürəyimin daşınmaz qəmi.
Babamın, nənəmin, atamın ruhu
sərgərdan dolaşır yenə aləmi.
Hər gecə, hər gecə yenə görürəm,
Pəncərəni döyən o tut ağacı
kəsilib, əl boyda kötüyü qalıb.
O xoşbəxt günlərin heykəli kimi
o ev uzaqlarda xəyala dalıb.
Hər gecə yuxuda bir ev görürəm…

Mənə barama kağızı ver,
Bir də kəndəlaş suyundan mürəkkəb.
Bir durna ləleyi tapıb yazacağam,
nə sevgi məktubu, nə də ki, şeir.
Yada salacağam o vaxt
olub ötənləri bir-bir,
yazacağam bir tarixi.
Ömür keçir, yetirmirəm
qəlbin öhdəliklərini,
Qəribçiliyə salıram ürəyin dediklərini.
Bu qış günü, isti otaq, masada çay,
ağ kağız, iti qələmlə
öz sözünü yazmaq asan.
O vaxtın qələm-kağızı, o müdhiş ovqatı ilə
gərək yazam
bir vaxt babam Dadaş bəyin
sürgündən ailəsinə yazmaq istədiklərini.

## MƏN ONU TANIYIRAM

***Görkəmli psixoloq alim,***
***insanlığın paklıq mücəssəməsi***
***professor Əbdül Əlizadəyə***

Mən onu tanıyıram,
Çöhrəsi nur, özü nur,
Haqdan gələn sədadır.
O saflığın özüdür,
Saflıq onun adıdır.

Mən onu tanıyıram,
Köhlən atın üstündə
Köhnə kişilər kimi.
Sözünün yiyəsidir
İgid kimi, ər kimi.

Mən onu tanıyıram,
İşığında, odunda
Neçə ürək qızınır.
Özünün xəbəri yox,
Tarixlərə yazılır.

Mən onu tanıyıram,
Ömrünün ziyasına
Neçə ömür büründü.
Onun əməlləriylə
Vətən gözəl göründü.

Mən onu tanıyıram,
Uşaq kimi təmizdi
Yetmiş yaşında belə.
Dönməz əqidəsiylə
Örnəyimizdi hələ.

Mən onu tanıyıram,
Eşqi sonsuz ümmandı,
Dağdı zirvəsində qar.
Nə yaxşı ki, dünyada
Əbdül Əlizadə var.



# ÖLƏN ŞEYLƏRƏ BAŞDAŞIKİMİ

***Büküldüm kəfən-taleyə,***
***Abrıma qısılıb öldüm.***
***Bağışla, ey dar ağacı,***
***Bəxtimdən asılıb öldüm.***

***...Beş-uç misra qalıb söz döyüşündə***
***Ölən şeirlərə başdaşı kimi...***

* * *

Yarımçıq doğulub öldü bu sevgi,
O nəğmə də öldü oxunan kimi.
Ölüm nəfəsimə toxunub getdi,
Çiynimə yarpaqlar toxunan kimi.

* * *

Büküldüm kəfən-taleyə,
Abrıma qısılıb öldüm.
Bağışla, ey dar ağacı,
Bəxtimdən asılıb öldüm.

* * *

Ömür deyilən qəfəsdi,
Burda qalmaq bəhsəbəhsdi.
Tanrı qıyıb öldürmədi,
Yüz yol nəfəsimi kəsdi.

* * *

**G**üvənmədim qızıl taxta,
Sığınmışam dönük baxta.
Çətində tanıyıb bildim,
Dərddən özgə hər şey saxta.

* * *

**N**iyə torpaq, daş olmadım,
Torpağa ki yol gedirəm.
Qalanlara qoşulmadım,
Qoşul mənə öl, gedirəm.

* * *

**B**aşımın üstündə səhər,
Balışın altında gecə.
Ömür-gün keçdi birtəhər,
Yenə qurtardı heç-heçə.

* * *

**T**abutlar ağac istəsə,
Dəyməyin o tək vələsə.
İtiləyin baltaları,
Sındırın ümidlərimi.

* * *

**Ü**stünə yorğan sərdim,
Layla çaldım candərdi.
Bilmədim yatırtdığım
Bu bəxti kim göndərdi.

* * *

**A**y qaraçı gözəli,
Fal açmaq nəyə lazım?
Aləmə bəxt yozursan,
Gəl sənə bir bəxt yazım.

* * *

**A**rxamca su səpmə, ana,
Bu sular göyərməyəcək.
Bəxt düz yanımdan ötəcək,
Yenə məni görməyəcək.

* * *

**Ö**zümə hərdən gedirəm,
Bu yerdən, göydən gedirəm.
Mən özüm dərdə gedirəm,

Dərdin özü mənə gəlir.

* * *

**Q**ocalıb, itirib yerişini də,
Çətin bir də məni anlaya, duya.
Budayan gərəkdi qol-budağını,
Bəlkə cavanlaşa, düzələ dünya.

* * *

**Ə**yilib yerin damı,
Əli göydədir hamı.
Buludlardan qan damır,
Dualarım ağlayır.

* * *

**«G**öz ürəyin aynasıdır»,
oxuyurdu kor müğənni.
Qulaqları eşitmirdi
gözəl qızın,
Gözləriylə duymaq istəyirdi
bu nəğməni.

* * *

**F**ələyin başıma tökdüyü dərdi,
Önündə Məcnunun çökdüyü dərdi,
Nə daşımaq olur, nə atıb getmək,
Qəlbimə sevginin əkdiyi dərdi.

* * *

**B**u yazıq həsrəti elə don vurub,
Od-alov içində əriyə bilmir.
Qürbəti evbəev dolaşan sevgim
Vətənin qəlbinə yeriyə bilmir.

* * *

**S**özünü divara demə,
Əyilmə içində qəmə.
Ürəyini sözə yedirt,
Hər deyilən sözü yemə.

* * *

**Ö**zünü xəlvətdə ağla,
Gizli axsın gözündə yaş.
Dilinə gələni saxla,
Qəlbindən keçəni danış.

# MÜNDƏRİCAT

**ÖN SÖZ………………………………………………….……… 3**

**SEVGİMDƏN TANIYACAQLAR……………………..... 11**

Ruhum bədənimdə qərib kimidi…………………….…….. 13

Gözümdən duşdüyün yola düşürəm……………….…… 14

Gedək sənə vətən olum……………………………….……. 15

Səni gözlərimin yaşı tutacaq…………………….……….. 16

Bu eşq doğulandan başı ağrıyır……………….……….. 17

Bir türk qızı ağlayırdı yuxumda….……………..………… 18

Sevgimdən tanıyacaqlar………………………..………….. 20

Gözlərin elə bil özgəsinindi……………….…….………... …. 21

Məndə daşa da sevgi var……………………..……………. 22

Bu eşqin əcəli çatıb deyəsən……………………...………… 23

Üçaylıq körpədi hələ bu sevgi………………………...……. 24

Hər axşam içində bir ümid öldü……………………….... 25

Dalğalar qabarıb çökür bu gecə….…………………………... 26

Səni sevmədim………………………………………………… 27

Sən deyən olsam………………………………………………. 28

Səsləndir ay Zaur, dinsin Vivaldi……………………......... 29

Qaranlığa örüş göndərən qızım………………………………. 30
Mən bir unudulmuş ada……………………………………… 31
Peterburq gecələrində…………………………………………. 32
Bir körpəcə əl uzanıb çarpayı barmaqlığından……………… 33
Bir sevgi öldü……………………………………………….. 34
Sənsiz………………………………………………………... 35
Yalanın gücü gatmır bu eşqi yaşatmağa……………......... 36
Səndən üzülməyin bircə yolu var…………………………….. 37
Yolumda bir günlük Prometey ol……………………………. 38
Hardan biləsən……………………………………........... 39
Məni məndən alan sevgi……………………………………… 40
Ümid həsrəti………………………………………........... 41
Sevəndən bəri…………………………………………………. 42
İnanma………………………………………………………… 43
Bu sevgidən xəbərsizsən……………………………………… 44
Ürəyim…………………………………………………………. 45
Ayrıldıq………………………………………………………… 46
«Sənə yayda, payızda, qışda, qarda lazımam»………………. 47
Ayrılıq var…………………………………………........... 48
Bir gün görəcəksən.…………………………………………… 49
Bu dünyanın çiçəkləri kim bilir niyə əkilib …..……………… 50
Tənha adam……………………………….……………….. 51
İtirəcəyəm səni bir gün…………………...………………… 52

**MƏN BU ÖMRÜ YAŞAMIŞAM……………………………. 53**
Dünya yalandan doğulub……………………………………… 55
Bir qərib meşədəyəm………………………………...……… 56
Bir günlük Tanrı qoynunda olasan ana uşağı………………. 57
Günlər ötür ömürdən………………………………........ 58
İtirəsən bu ömrü, tapasan yarısında…………………....... 59
Məni oxuma…………………………………………………… 60
Daha yuxum gəlir, ana……………………………......... 61
Epitafiya………………………………………………......... 62
Nə var bu dünyada, gəl çıxaq gedək………………………….. 63
Udmağa tələsmə torpaq………………………………………. 64
Sən elə bilirsən ölmək asandı?........................................... 65
Özgələrdə ara məni……………………………………………. 66
İndi yaraşırıq daş mağaraya………………………........ 67
Bir damla ilişib kirpiklərimə……………………………........ 68
Mənim əlim sənə yetmir………………………………………. 69
«Rekviyem» çalınırdı………………………………………….. 70
Dəlixana həyətində…………………………………………….. 72
Dəli qıza………………………………………………......... 73
Axır mən də öyrəndim…………………………………………. 74
Oynayır qaraçı qızı…………………………………………….. 75
Özümdə darıxıram……………………………………………... 76
Yenə yumulu gözlərim yuxu dalınca sürünür………………... 77

Şeir dar ağacı olsaydı…………………………………………….. 78

Göylər məni yaman çəkir…………………………………….. 79
Ötən günə qayıtmaq istəyir hamı…………………………….. 80
«Daş səbri çoxdan ovulub…»………………………………… 81
Gözlərim yol çəkir…………………………………......... 82
Hamı ömrü atıb gedir…………………………………………. 83
Günah……………………………………………..………. 84
Bəxtim Tanrı yazandı…………………………………………….. 85
Dünya, hələ sənə bələd deyiləm……………………………….. 86
Ötən günlərim……………………………………......... 87
Dərdi çoxdu dərdimin…………………………………........... 88
Özümə oxşayan qəbir gəzirəm………………………………… 89
Ölü dənizə……………………………………………………. 90
Əcəlim necə olacaq?............................................................. 91
Yuxu gözümə dağ oldu………………………………………… 92
Ömür ovuc içi kimi…………………………………………….. 93
Adam var ki…………………………………………………. 94
Buludlar daş yağdırır………………………………………….. 95
Ölümdən doğma nə var ki?................................................. 96
Ömür istəyirəm……………………………………………… 97
«Nə qədər şair var, Allah…»………………………………….. 98
«Ən yaxşı şeirimi yazıb…»…………………………………….. 99

Sənə yazmadığım şeir…………………………………........... 100
«Bir gözə kül üfürmədim…»……………………………......... 101
Vaxtında gedəsən................................................................ 102
Yenə tənhalıq əl edər……………………………………......... 103
Yerimi heç kəsə demə……………………………………….. 104
Mən bu ömrü yaşamışam……………………………….... 105
Dərdin pıçıltısı…………………………………………......... 106

**VƏTƏN DƏRDİ……………………………………………… 107**
Vətən dərdi………………………………..………………… 109
Vətən………………………………………………………… 110
Yenə dəli könlüm şeir istəyir……………………………......... 111
Türkün nağılı……………………………………………….. 112
Dərdimi……………………………………………………… 113
Bağışlama ay Vətən………………………………………… 116
Vətən sənə neyləmişdi? ....................................................... 117
Xarı bülbül………………………………………………….. 119
Müharibə lövhəsi…………………………………………… 120
Batı Trakya…………………………………………………. 121

**BU PAYIZIN TƏK DURNASI……………………………… 123**
Sükut tablosu………………………………………………. 125
Şeir yazmalı havadı………………………………………… 126

Qar yağır………………………………………………………. 127

Meşənin bəyi var …………………………………………….. 128
Necə gözəldi təbiət……………………………………………. 130
Bu payızın tək durnası…...…………………………………… 131
Bu yağış……..………………………………………………… 132
Payız mənim əlimdədir……………………………………......... 133
Dəniz kənarında.....…………………………………………… 134

**YADIMDA BELƏ QALIB…………………………………… 135**
Yadımda belə qalıb…………....……………………………….… 137
Nənəmə………………………………………………………. 139
Atama ağı..…………………………………………………… 140
Başdaşınızla göz-gözə……...………………………………… 141
Atam ölən günü ölmüşdü nənəm……………………….…….. 142
Yuxuda bir ev görürəm…………………………..…………. 143
«Mənə barama kağızı ver…» ………………….…………… 144
Mən onu tanıyıram…………………………………….…… 145

**ÖLƏN ŞEİRLƏRƏ BAŞDAŞI KİMİ** ……….………….….. 147

**Təranə Yusif qızı Rəhimli**

***DƏRDİN PIÇILTISI***

(Şeirlər)

Bakı – 2007


Rəssamı: **Təranə Rəhimli**

Texniki redaktoru: **Aysel Abizadə**

Korrektoru: **Aygün Hacıyeva**

Kompüter tərtibatçısı: **Zaur Rəhimli**

Operatoru: **İlhamə Hüseynova**

Çapa imzalanmış 06.03.2007-ci il
Kağız formatı 60x84, 1/16, çap vərəqi 10
Sifariş 52, sayı 200

ADPU-nun mətbəəsi
Bakı, Ü.Hacıbəyov küçəsi, 34
Tel: 493-74-10